RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 155 (9034) ÇƏRŞƏNBƏ AXŞAMI, 26 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Son 10 ilin uğur salnaməsi

## Möhtəşəm nailiyyətlər İlham Əliyevin genişmiqyaslı hədəflərə hesablanmış islahatlarının nəticəsidir

**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bu gün dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, həmçinin böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib.**

Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətin nəticəsidir ki, hazırda Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə mühüm qlobal layihələr uğurla icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaradıb.

Qazanılan nailiyyətlərin beş fundamental nəticəsi...

Ümumiyyətlə, İlham Əliyevin indiyədək həyata keçirdiyi islahatlarla, reallaşdırdığı layihələrlə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini təmin edib. Bu müstəqillik ölkəmizin istənilən böhrandan minimum itkilərlə çıxmasını şərtləndirib.

Hər zaman uzaqgörən qərarları, təşəbbüsləri ilə Azərbaycana hərtərəfli dividendlər qazandıran İlham Əliyev iyulun 22-də bu prosesin tərkib hissəsi olan daha bir mühüm sənədi - 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasını təsdiq etməklə qarşıdakı 5 ildə yüksəlişin yol xəritəsini müəyyənləşdirmiş oldu.

→ 4

# Hansısa dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirməsə, cəzalandırılacaq

### Prezident İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin başçısı, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin başçısı və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüşdə çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

- Siz Göygöl, Lerik və Masallı rayonlarına icra başçıları vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, bu etimadı öz işinizlə doğruldacaqsınız.

İlk növbədə rayonlarda vəziyyət geniş təhlil olunmalıdır, mövcud nöqsanlar aşkar edilməli və aradan qaldırılmalıdır.

→ 2

# Müstəqil siyasətin beynəlxalq nailiyyətləri

Hər bir uğuru ilə qürur duyduğumuz doğma vətənimiz özünəməxsus, həm də bənzərsiz inkişaf yolu, sürətli irəliləyişi ilə gündən-günə qüdrətlənir, dünya siyasət arenasında layiqli yerini möhkəmləndirir.

Müstəqil Azərbaycanın son illərdə inanılmaz dərəcədə dəyişdiyini, onilliklərə bərabər yol qət etdiyini hazırda hər kəs etiraf edir. Azərbaycan sürətli inkişafı ilə zamanı da qabaqlayır. Biz artıq ölkəmizin tərəqqisini müəyyən mənada labüd, qaçılmaz, dönməz proses kimi qiymətləndirməyə başlamışıq.

Son illərdəki yüksək nailiyyətlər fonunda hər bir yeniliyi, uğuru ictimai həyatın reallığı kimi dəyərləndiririk. Bir vaxtlar xəyal kimi görünən, əlçatmaz olan iri layihələrin ani bir zamanda həyata vəsiqə alması, işğaldan azad olunmuş şəhərlərimizin, rayonlarımızın, kəndlərimizin sürətlə abadlaşaraq göz oxşaması, insanların yaşayış səviyyəsinin ildən-ilə yaxşılaşdırılması çoxlarımıza təəccüblü görünmür. Əslində, belə də olmalıdır. Azərbaycan son illərdə ölkə rəhbəri İlham Əliyevin müəyyənləşdirdiyi strateji xətlə irəliləyir və misilsiz uğurlara imza atır.

Prezident İlham Əliyevin sədrliyi ilə bu günlərdə Nazirlər Kabinetinin 2022-ci ilin altı ayının nəticələrinə həsr olunmuş müşavirəsi ölkəmizin əldə etdiyi nailiyyətlərin dəyərləndirilməsi, dünyada gedən proseslərin aydın təhlili, eyni zamanda hökumət qarşısında gələcəyə hazırlıqla bağlı bir sıra konkret vəzifələrin müəyyənləşdirilməsi baxımından çox mühüm məqamlarla yadda qaldı.

→ 4

# Azərbaycan həmişə olduğu kimi Özbəkistanın yanındadır



**İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Şavkat Mirziyoyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan Prezidenti dövlət səfəri zamanı ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirib, Özbəkistan Prezidentini Azərbaycana rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

Dövlət başçıları məmnunluq hissi ilə qeyd ediblər ki, Azərbaycan Prezidentinin səfəri zamanı əldə olunmuş bütün razılıqlar icra edilir. Vurğulanıb ki, səfərdən bir ay vaxt keçməsinə baxmayaraq, ticarət, sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat sahələri ilə bağlı müvafiq dövlət orqanları rəhbərlərinin qarşılıqlı səfərləri çərçivəsində əməkdaşlığın genişləndirilməsi ilə əlaqədar razılığa gəlinib. Qeyd olunub ki, avqustun əvvəlində Daşkənddə Azərbaycan-Özbəkistan birgə hökumətlərarası komissiyasının növbəti iclası və Azərbaycan, Özbəkistan, Türkiyə xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin üçtərəfli görüşləri keçiriləcək.

Söhbət zamanı Prezident İlham Əliyev bu yaxınlarda Qaraqalpaqstanda baş vermiş hadisələrlə bağlı Özbəkistan Prezidentinə bir daha öz dəstəyini ifadə edib və Azərbaycanın həmişə olduğu kimi Özbəkistanın yanında olduğunu bildirib.

Şavkat Mirziyoyev bu dəstəyə görə təşəkkürünü ifadə edib.

Söhbət zamanı əməkdaşlığımızın inkişaf perspektivləri və dövlət başçıları arasında təmaslarla bağlı fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

# Ölümlə çarpışanlar

### Son 6 ay ərzində dəniz sularında 1200 nəfər miqrant həyatını itirib

Ötən gün Aralıq dənizində qeyri-hökumət qurumlarının gəmiləri ilə 500-dən çox miqrant xilas edilib. Almaniyanın "Sea-Watch" xeyriyyə təşkilatı dörd xilasetmə missiyası həyata keçirib. Şimali Afrikadan Avropaya təhlükəli qayıqlarla getməyə çalışan 428 nəfər gəmilərə qaldırılıb.

Fransanın "SOS Mediterranee" xidməti 57-si azyaşlı olan 87 nəfər miqrantı aşkar edib. Təşkilat bildirib ki, hazırda Qırmızı Xaç Cəmiyyəti onların qayğısına qalır. "Associated Press" Agentliyinin İtaliya Sahil Mühafizəsinə istinadən verdiyi xəbərə görə, İtaliya gəmiləri Aralıq dənizində Liviya sahilləri yaxınlığında axınla üzən balıqçı qayığından beş cəsəd çıxarıb və 674 nəfəri xilas edib.

→ 7

# COVID təhlükəsi səngimək bilmir

İki il əvvəl dünya gözləmədiyi bir anda COVID-19 adlı pandemiya ilə üz-üzə qaldı. Koronavirus infeksiyası inanılmaz sürətlə yayıldı, bu virusa yoluxan və xəstəlikdən dünyasını dəyişən insanların sayı hər ötən gün daha da artdı, dünyanın ən inkişaf etmiş ölkələrinin belə səhiyyə sistemləri çökdü.

Çünki pandemiyanın ilk vaxtlarında tibb aləmi, eləcə də ölkələr bu bəla ilə necə mübarizə aparılacağını bilmirdi. Lakin tədricən mütəxəssislərin səyi ilə bəşəri sınaqdan çıxmağın yolları, ən əsası virusa qarşı peyvənd tapıldı.

Hər bir ölkə vətəndaşlarını böhrandan minimum itki ilə çıxartmaq üçün öz strategiyasını, koronavirusa qarşı mübarizədə fərqli yanaşma tərzi və metodlarını tətbiq etdi.

→ 7

# Ermənistan əhalisi çörəyə möhtac qalıb

### Səfalət içərisində yaşayan insanlar xarici ölkələrdə sığınacaq axtarırlar

Bütün sahələrdə dərin böhran yaşayan Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Tərəflər bir-birilərini təhdid etməkdə davam edirlər.

Artıq İrəvanda "Azadlıq" meydanında növbəti mitinq başlayıb. Aksiyaçılar ötən ay polis polkunun binasını ələ keçirmiş və hazırda həbsdə olan şəxslərə dəstək nümayiş etdirirlər. Bu çəkişmələrdən yorulan əhali isə problemlərinin həllini istəyir. Ölkədə əhalinin 60 faizi işsizdir.

→ 7

# Əzəli yurdlara əbədi qayıdış



→ 6

AZƏRBAYCAN www.azerbaijan-news.az

## A.S.Əhmədovun Masallı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Araz Süleyman oğlu Əhmədov Masallı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

## E.N.Paşayevin Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elvin Nazim oğlu Paşayev Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

## Ə.B.Abbasovun Lerik Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Əkbər Bəxtiyar oğlu Abbasov Lerik Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

## Reza Deqatinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə görə Reza Deqati "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

## Ş.K.Məmmədovun Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Şahin Kərim oğlu Məmmədov Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il iyunun 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Serbiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

# Hansısa dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirməsə, cəzalandırılacaq

Prezident İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edib

*Əvvəli 1-ci səh.*



Son illərdə bütün rayonlarda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində geniş abadlıq-quruculuq işləri görüldü, böyük infrastruktur layihələri icra edildi və uzun illər ərzində insanları narahat edən problemlərin böyük hissəsi aradan qalxdı. Elektrik enerjisi ilə təchizat, qazlaşdırma, yol infrastrukturu, suvarma, içməli su layihələri, sosial infrastruktur layihələri icra olundu, hər rayonda müasir xəstəxana, tibb ocaqları, bir çox məktəblər inşa edildi. Əlbəttə ki, rayonların sosial-iqtisadi inkişafına bunun çox böyük töhfəsi olmuşdur. Çünki infrastruktur olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Biz elə infrastruktur layihələri icra etdik ki, heç sovet vaxtında bunlar icra edilmirdi. Xüsusilə Lerik rayonu sovet vaxtında qazlaşdırılmamışdı. Mənim göstərişimlə Lerikə qaz çəkildi. Üç rayon dağlıq rayon olduğu üçün, əlbəttə ki, qazlaşdırma ilə bağlı problemlər digər rayonlarla müqayisədə daha ciddidir. Ancaq biz imkan daxilində bütün bu işləri görməklə insanların rifah halını yaxşılaşdırmışıq.

Təbii ki, bu infrastruktur layihələri iş yerlərinin yaradılmasına da xidmət göstərmişdir. Sahibkarlar da bölgələrdə bütün quruculuq işlərində fəal iştirak edirlər. İş yerlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Çünki ölkə əhalisi artır. Azərbaycan müstəqilliyə qovuşanda əhalimiz 7 milyondan bir qədər çox idisə, bu gün 10 milyondan çoxdur. Bu, təbii olaraq tələb edir ki, iş yerlərinin açılması prosesi daimi xarakter alsın. Eyni zamanda biz işsizliklə bağlı mübarizədə də ciddi addımlar atırıq, ödənişli sosial işlərin yaradılması da geniş vüsət almışdır. Hər rayon üzrə kvota var. Əfsuslar olsun ki, bəzi rayonlarda bu işlərə cəlb ediləcək insanlar işlərə cəlb olunmamış, əksinə, onlara çatacaq vəsait rayon icra başçıları və digər məsul şəxslər tərəfindən mənimsənilmişdir.

Bilirsiniz ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilmişdir, bəzilərinin hökmü verilmişdir, bəzilərinin işləri məhkəmədədir. Bu onu göstərir ki, heç kim qanundan üstün ola bilməz. Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır.

Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz. Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz. Elə məsələlər var ki, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır. Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz - Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti dövlət qurumlarına ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, demək olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq.

Əlbəttə, fəaliyyətinizdə sosial ədalət prinsipinə əməl etməlisiniz. Sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür. Biz isə sağlam cəmiyyət qururuq və demək olar ki, bu işdə müvəffəqiyyətlər qazanmışıq. Bu gün Azərbaycan cəmiyyəti həmrəylik nümayiş etdirir, Azərbaycan cəmiyyəti ölkədə gedən prosesləri dəstəkləyir, bizim xarici, daxili siyasətimizi dəstəkləyir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndirilib. Bizim siyasətimiz ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Bizim siyasətimiz nəticəsində Azərbaycan hərbi və ondan sonra siyasi yollarla Ermənistanın işğalçılıq siyasətinə son qoydu, əzəli torpaqlarımızı azad etdi, tarixi ədaləti bərpa etdi, milli qüruru bərpa etdi.

Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. Yəni dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar.

Biz bu Qələbəni onlara - şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq. Əlbəttə, dövlət qətiyyət göstərdi, biz öz iradəmizi ortaya qoyduq, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, "öldü var, döndü yoxdur" - deyərək torpaqlarımızı azad etdik. Bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir.

Rayonların inkişafı ilə bağlı siz özünüz təşəbbüs göstərməlisiniz. Bəzi hallarda yerli icra orqanları bir qədər tənbəllik edirlər, ya gözləyirlər ki, dövlət tərəfindən hansısa layihələr icra ediləcək, ya da ki sahibkar gəlib onların qapısını döyəcək. Belə olan halda bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür. Siz özünüz sahibkarları rayonlarınıza cəlb etməlisiniz, həm yerli sahibkarları, həm də xarici sahibkarları. Xüsusilə nəzərə alsaq ki, Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir və bu rayonların füsunkar təbiəti bizim böyük sərvətimizdir - meşələr, dağlar, bulaqlar, çaylar, şəlalələr. Yəni bu rayonları, sözün əsl mənasında, turizm mərkəzinə çevirmək hesab edirəm ki, əsas vəzifələrdən biridir.

Son illərdə bir çox işlər görülüb. Mən dəfələrlə Göygöl, Lerik və Masallı rayonlarında olarkən o cümlədən bu məsələ ilə də maraqlanırdım və öz tövsiyələrimi verirdim. Bilirəm ki, bu rayonlarda müasir istirahət zonaları, hotel kompleksləri inşa edilib və əlbəttə ki, bu proses daha geniş vüsət almalıdır. Bir neçə il bundan əvvəl, hətta Vətən müharibəsinə qədər biz Göygöl gölünü də ictimaiyyət üçün açdıq. Mən əvvəlki illərdə, müharibədən əvvəlki illərdə də maraqlanırdım ki, nə üçün Göygöl gölümüzə, bizim təbii sərvətimizə insanların yaxınlaşması, yaxud da ki gəlişi mümkün deyil. Bunu onunla əsaslandırırdılar ki, təmas xəttinə yaxın olan ərazidir. Ondan sonra araşdırmağa başladıq və gördük ki, Göygöl gölü turizm obyekti kimi və bu gölün ekoloji vəziyyəti, ekosistemi qorunmaq şərtilə açıla bilər və bunu da etdik. İndi minlərlə insan hər gün, xüsusilə yaz-yay mövsümlərində Göygöl gölünə gəlir, bu gözəl mənzərəni seyr edir, xüsusilə Vətən müharibəsindən sonra ki, artıq biz düşməni torpaqlarımızdan qovduq. Əlbəttə ki, bu gözəl yerin turizm üçün çox böyük əhəmiyyəti var. Eyni zamanda nəzərə alsaq ki, bu gün Göygöl rayonundan Kəlbəcər rayonuna yol açılır, tunel çəkilir, bu rayonun Kəlbəcər-Laçın zonasının inkişafı ilə bağlı xüsusi rolu vardır.

Digər rayonlarda da turizm potensialı çox zəngindir. Vaxtilə Lənkəran-Lerik yolu bərbad vəziyyətdə olduğu üçün Lerik rayonuna demək olar ki, turizm axını yox idi. Mənim göstərişimlə yol əsaslı şəkildə təmir olundu, yenidən quruldu. Lerik rayonuna da turizm axını başlamışdır. Bu rayonun da çox böyük tarixi, çox böyük sərvətləri var. Masallı rayonunun da həmçinin. Masallı rayonunun dağlıq hissəsi, düzən hissələri var. Bir daha demək istəyirəm ki, bu rayonların turizm potensialı çox zəngindir.

Eyni zamanda hər üç rayonda kənd təsərrüfatının inkişafı üçün də çox gözəl imkanlar var. Burada da müasir tələblərə uyğun kənd təsərrüfatı yaradılmalıdır. Müasir aqrotexniki tədbirlərin görülməsi, tətbiq edilməsi şərtilə heyvandarlıq, bitkiçilik rayonların xüsusiyyətlərinə görə inkişaf etməlidir. Bununla bağlı olan çox ciddi məsələ torpaqlardan səmərəli istifadə edilməsidir. Əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdi. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdı. Bu, təkcə regionlara aid olan məsələ deyil, Bakı şəhərində, Abşeron yarımadasında da belə hallar var. Yəqin siz də bilirsiniz, bu yaxınlarda ictimaiyyətin bir qrup nümayəndəsi mənə müraciət etmişdir ki, böyük tarixə malik olan Buzovna qayaları bəzi insanlar tərəfindən zəbt edilmişdir. Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dərhal göstəriş verdim ki, bu məsələ araşdırılsın, mənə məruzə edilsin və mənə məruzə edildi. Çox böyük pozuntular aşkarlandı, çox böyük pozuntular. Bu qanunsuz əməllərə kimlər əl atıb? Dövlət məmurları və bəzi dırnaqarası sahibkarlar! Onların da siyahısı var. Bu, tarixə qarşı, bizim təbiətimizə qarşı cinayətdir. Bu qayalar Bakının rəmzidir, bu qayalar əsrlərboyu sahilimizin gözəlliyini əks etdirirdi. Bu qayalara insanlar yaxınlaşırdı, orada filmlər çəkilirdi. Kimsə bunu zəbt edir, onları sındırır, özləri üçün villa tikir.

Əfsuslar olsun ki, belə hallar çoxdur. Bu gün bir daha demək istəyirəm ki, bu hallara qarşı çox ciddi mübarizə aparılır. Çünki idarəetmədə çox ciddi islahatlar aparılır, çox böyük təmizləmə işləri aparılır. Bu işlərə rəvac verən və bəzi dövlət məmurlarını, yerli icra orqanlarını bu qanunsuz işlərə təhrik edən insanlar hakimiyyətdən uzaqlaşdırıldı. Hakimiyyət təmizlənir və insanlar da bunu görürlər. Ona görə siz, dövlət məmurları kimi, bu hallara çox ciddi fikir verməlisiniz. Bunu mən sizə deyirəm və bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Ona görə torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır. Həm rəhbərlik edəcəyiniz rayonlarda, həm bütün ölkə üzrə, Abşeron yarımadasında, sahilboyu ərazilərdə, bütün rayonlarda araşdırılmalıdır və qanunsuz əməllərə son qoyulmalıdır.

Azərbaycan ərazi baxımından o qədər də böyük ölkə deyil. Bizim üçün hər qarış torpaq qiymətlidir, dəyərlidir və torpaqdan insanlar istifadə etməlidirlər. Fermerlər, kəndlilər məhsul yetişdirmək üçün istifadə etməlidirlər. Biz ölkəmizin ekoloji sistemini qorumalıyıq və sizə də tövsiyələrimin biri bundan ibarətdir. Görülən və görüləcək bütün işlər elə aparılmalıdır ki, ekologiyaya ziyan dəyməsin. Xüsusilə həm Göygöl, həm Lerik, həm də Masallı çox zəngin təbiəti olan rayonlardır. Ona görə ekoloji tarazlıq, ekoloji normalar qorunmalıdır. Bunu mütləq nəzərə alın.

Əminəm ki, hər bir rayonda, hər bir yerdə müasir idarəetmə qaydaları tətbiq olunarsa, bir çox problemlər aradan qaldırılacaq. Bax dövlətin siyasəti bundan ibarətdir. Mən hər zaman Azərbaycan dövlətinin siyasətini birmənalı şəkildə ifadə edirdim, bunu ictimaiyyətə təqdim edirdim. Mənim bir çox çıxışlarım ictimaiyyət qarşısında hesabat xarakterli çıxışlardır və eyni zamanda bütün dövlət məmurlarına, o cümlədən sahibkarlara dediyim sözlər hesab edirəm ki, əsas olmalıdır.

Sahibkarlıq inkişaf edir, mən bunu dəstəkləyirəm və bunun üçün bir çox addımlar atılır. Ancaq burada da bütün qaydalara riayət edilməlidir, xüsusilə həm inşaatda, həm kənd təsərrüfatı sahəsində, turizm sahəsində. Baxmaq lazımdır yaradılan obyekt nə dərəcədə bu və ya digər bölgənin memarlıq üslubuna cavab verir, nə dərəcədə müasir normalara cavab verir, bunun inşaat zamanı əmsalı normalara uyğundur, yoxsa yox. Əfsuslar olsun ki, vaxtilə Bakı şəhərində inşa edilmiş bir çox hündürmərtəbəli binalar indi heç bir şəhərsalma normalarına uyğun gəlmir. Nə üçün? Çünki qanunsuz işlər görülüb. Rayon icra başçıları qanunsuz icazələr verib və bunun nəticəsində də faktiki olaraq şəhərsalma prinsiplərinə böyük zərbə dəyib. Ona görə indi bunları düzəltmək çox çətindir. Amma biz indi bu mərhələdə imkan verə bilmərik ki, inşaatda şəhərsalma normaları pozulsun. Məsələn, işğaldan azad edilmiş rayonlarda bütün şəhərsalma, ekoloji normalar 100 faiz gözlənilir, özü də dünyanın ən inkişaf etmiş ölkələrinin standartları əsasında. Bax siz də öz fəaliyyətinizdə bu məsələlərə ciddi fikir verməlisiniz və nəzarət etməlisiniz.

Rəhbərlik edəcəyiniz rayonlarda işlərin daha yaxşı getməsi üçün, əlbəttə ki, ictimai nəzarət olmalıdır. Siz ictimai nəzarətdən çəkinməməlisiniz. İctimai nəzarət, ictimaiyyətin fəallığı, mövcud olan problemlərə dövlət orqanlarının diqqətinin cəlb edilməsi sizin işinizə kömək göstərəcək. Ona görə insanlarla bir yerdə olmalısınız, ictimaiyyətlə bir yerdə olmalısınız və biz ancaq bu yolla ölkəmizi inkişaf etdirə bilərik.

Bir daha demək istəyirəm, sizə böyük etimad göstərilir. Mən hesab edirəm ki, son vaxtlar ölkəmizdə gedən çoxşaxəli islahatlar, o cümlədən idarəetmə sahəsində aparılan islahatlar, həmçinin kadr islahatları bütün Azərbaycan ictimaiyyətinə bizim siyasətimizi göstərir, bizim niyyətimizi göstərir.

Azərbaycanın çox böyük perspektivləri var, çox böyük potensialı var, xüsusilə İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdən sonra ki, biz bu ədalətsizliyə də son qoyduq, öz gücümüzlə tarixi ədaləti bərpa etdik. Biz müzəffər xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq və ölkəmizdə işlər elə getməlidir ki, heç bir narahatedici problem olmasın, heç bir ədalətsizlik olmasın. Bütün imkanlar var - təbii sərvətlərimiz, coğrafi yerləşməyimiz, beynəlxalq nüfuz, infrastruktur layihələri. İndi hər şey göz qabağındadır. Azərbaycan necə sürətlə inkişaf edir, xüsusilə indiki şəraitdə ki, həm dünyada iqtisadi böhran hökm sürür, həm digər narahatedici məsələlər göz qabağındadır. İndi belə olan halda hansısa dövlət məmuru əgər öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, o cəzalandırılacaq. İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın.

Bax mənim sizə göstərişlərim bundan ibarətdir. Mən sizdən fəal iş gözləyirəm, nəticə gözləyirəm. Əminəm ki, siz bu yüksək etimadı dərk edərək dediyim kimi işləyəcəksiniz.

❖ ❖ ❖

Rayonların yeni təyin olunan icra hakimiyyətlərinin başçıları onlara göstərilən böyük etimada görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə etdilər, bu etimadı doğrultmaq üçün tam məsuliyyətlə çalışacaqlarını və dövlət başçısının tapşırıqlarından irəli gələn məsələləri, üzərilərinə düşən vəzifələri layiqincə icra etmək üçün səylə fəaliyyət göstərəcəklərini bildirdilər.

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 363; 2001, № 11, maddə 696; 2002, № 12, maddə 709; 2003, № 1, maddə 12; 2006, № 8, maddə 657; 2008, № 5, maddə 348; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 261, № 12, maddə 1090; 2016, № 12, maddə 1990; 2018, № 3, maddə 379; 2019, № 6, maddə 988; 2021, № 5, maddə 429) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin üçüncü hissəsinin ikinci cümləsindən "və istilik" sözləri çıxarılsın və həmin hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İstilik enerjisi istehlakçısının enerji təchizatı şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alınması üçün texniki şərtlərin verilməsi bu Qanunun 11-ci maddəsinin birinci hissəsində göstərilən istilik enerjisindən istifadə qaydaları ilə müəyyən edilir.".

2. 11-ci maddə üzrə:

2.1. birinci hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Müqavilələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən elektrik enerjisindən istifadə qaydalarına və istilik enerjisindən istifadə qaydalarına uyğun tərtib edilməklə müvafiq olaraq aşağıdakıları əks etdirməlidir:";

2.2. beşinci hissənin birinci cümləsinə "elektrik" sözündən, ikinci cümləsinə "Elektrik" sözündən və hər iki halda "elektrik" sözündən sonra "və ya istilik" sözləri əlavə edilsin;

2.3. altıncı hissə üzrə:

2.3.1. ikinci cümlə müvafiq olaraq üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Enerji təchizatı müəssisəsi istehlakçıya verdiyi istilik enerjisinin dəyərini sayğacın göstəricilərinə (sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda isə bu Qanunun 11-ci maddəsinin birinci hissəsində göstərilən istilik enerjisindən istifadə qaydalarına) əsasən tam hesablamalı və hər ay istehlakçıya məlumat (hesab) təqdim etməlidir (göndərməlidir).";

2.3.2. üçüncü cümləyə hər iki halda "elektrik" sözündən sonra "və istilik" sözləri əlavə edilsin;

2.4. yeddinci hissəyə "hesabına" sözündən sonra "(istilik enerjisinə münasibətdə bu Qanunun 11-ci maddəsinin birinci hissəsində göstərilən istilik enerjisindən istifadə qaydalarında müəyyən edilmiş hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

2.5. onuncu hissəyə hər iki halda "paylayıcı şəbəkəyə" sözlərindən sonra "və ya istilik şəbəkəsinə" sözləri əlavə edilsin;

2.6. aşağıdakı məzmunda on birinci hissə əlavə edilsin:

"Enerji təchizatı müəssisəsi istehlakçıya istilik enerjisinin verilməsini aşağıdakı hallarda dayandırır:

istehlakçının müvafiq yazılı müraciəti (istilik enerjisinin verilməsinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;

enerji təchizatı müəssisəsinin istehlakçıya verdiyi istilik enerjisinin hesabı istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsait bir ay müddətində tam məbləğdə ödənilmədikdə;

enerji təchizatı müəssisəsi ilə müvafiq müqavilə bağlanmadıqda;

istehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələrin quraşdırılması, istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə (sistemdən və qızdırıcı cihazlardan suyun boşaldılması) halları aşkar edildikdə;

təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda;

məhkəmənin qərarı ilə;

dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanın göstərişi əsasında.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2022-ci il*

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsinə uyğun olaraq istilik enerjisindən istifadə qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

2.2. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 384; 2003, № 10, maddə 582; 2007, № 2, maddə 87, № 6, maddə 601, № 8, maddə 769; 2008, № 8, maddə 719; 2010, № 10, maddə 848; 2011, № 4, maddə 290; 2012, № 10, maddə 953; 2013, № 11, maddə 1334; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 10, maddə 1209; 2016, № 8, maddə 1384; 2017, № 7, maddə 1373; 2018, № 3, maddə 409, № 6, maddə 1218; 2020, № 7, maddə 896) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa "cümlələrində," sözündən sonra "11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində," sözləri əlavə edilsin;

3.2. beşinci - on beşinci abzaslar müvafiq olaraq altıncı - on altıncı abzaslar hesab edilsin və aşağıdakı məzmunda beşinci abzas əlavə olunsun:

"həmin Qanunun 11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490; 2020, № 7, maddə 896; 2021, № 7, maddə 729, № 8, maddə 926, № 12, maddə 1405; 2022, № 4, maddə 321) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.6.8-ci yarımbəndinə "elektrik" sözündən sonra "və istilik" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94 cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89; Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 487-VIQD nömrəli və 26 aprel tarixli 517-VIQD nömrəli qanunları) 280-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Maddənin adına "Qaz" sözündən sonra ", istilik" sözü əlavə edilsin.

2. Maddənin dispozisiyasına ikinci halda "qaz" sözündən sonra ", istilik" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamənin, komitənin strukturunun təsdiq edilməsi, aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2007-ci il 9 noyabr tarixli 647 nömrəli və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, şəhərsalma fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 noyabr tarixli 647 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1095; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 11, maddə 1831; 2017, № 1, maddə 39; 2019, № 3, maddə 437; 2021, № 8, maddə 915; 2022, № 4, maddə 306) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə"nin 8.20-3-cü bəndinə "vasitəsilə" sözündən sonra "və ya bilavasitə" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 11, maddə 2289, № 12 (I kitab), maddə 2616; 2019, № 3, maddə 434, № 5, maddə 826, № 10, maddə 1581; 2020, № 5, maddə 559, № 6, maddə 684, № 7, maddə 891, № 11, maddə 1341; 2021, № 8, maddə 915, № 12, maddə 1402; 2022, № 3, maddə 219) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.7-1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7-1.1. həmin Məcəllənin 78.2-ci maddəsində nəzərdə tutulmuş dövlət əhəmiyyətli tikinti obyektlərinə münasibətdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə - Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;";

2.2. 4.7-1.2-ci yarımbənd üzrə:

2.2.1. 4.7-1.2.1-ci və 4.7-1.2.2-ci yarımbəndlər 1-ci və 2-ci abzaslar hesab olunsun və aşağıdakı redaksiyada verilsin:

"1. Bakı şəhərinin inzibati ərazisində tikinti obyektlərinə münasibətdə - yanındakı Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi qismində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;

2. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində tikinti obyektlərinə münasibətdə - yanındakı Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi qismində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;";

2.2.2. aşağıdakı məzmunda 3-cü və 4-cü abzaslar əlavə edilsin:

"3. bir neçə şəhər və (və ya) rayon (şəhər rayonu istisna olmaqla) inzibati ərazi vahidi ərazisində yerləşən tikinti obyektlərinə münasibətdə - Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;

4. digər inzibati ərazi vahidlərində tikinti obyektlərinə münasibətdə - yerli icra hakimiyyəti orqanları;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2022-ci il*

# Bakıda Qoşulmama Hərəkatının gənclər sammiti öz işinə başlayıb



İyulun 25-də Bakıda Qoşulmama Hərəkatına (QH) üzv ölkələrdən olan gənclərin sammiti öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, Qoşulmama Hərəkatına üzv olan 60-dan çox ölkənin gənc nümayəndələrinin iştirak etdiyi sammitin açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov qonaqları salamlayıb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakçılara ünvanlanmış müraciətini səsləndirib.

Dövlət başçısının müraciətində bildirilib ki, Azərbaycanda gənclər siyasətinə müstəsna əhəmiyyət verilir və hazırda ölkəmizdə keçirilməkdə olan bu tədbir hərəkat ölkələrinin gəncləri arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcək. Prezidentin müraciətində həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə diqqət çəkilib və qeyd olunub ki, hərəkata üzv ölkələrin yekdil qərarı ilə ölkəmizin QH-yə sədrliyinin bir il daha - 2023-cü ilin sonunadək uzadılması sədrliyimizin müvəffəqiyyətlə həyata keçirildiyinin və üzv dövlətlərin Azərbaycana etimadının bariz nümunəsidir.

Daha sonra BMT Baş Assambleyasının 76-cı sessiyasının sədri Abdulla Şahidin sammit iştirakçılarına videomüraciəti nümayiş etdirilib. Həmin videomüraciətdə Abdulla Şahid QH gənclərinin sammitini təşkil etdiyi üçün Azərbaycan sədrliyinə minnətdarlıq ifadə edib, xüsusən postpandemiya dövründə gənclərin rolunun vurğulanmasının təqdirəlayiq hal olduğunu qeyd edib.

Açılış mərasimində həmçinin Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin hazırkı sədri Orduxan Qəhrəmanzadə çıxış edib, ötən ilin noyabr ayında yaradılmış şəbəkənin ötən müddət ərzində gördüyü işlər və gələcək planlardan bəhs edib.

Açılış sessiyasında sammitin iştirakçıları və QH Gənclər Şəbəkəsinin üzvlərindən əlavə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyinin müvafiq nümayəndələri, Milli Məclisin deputatları, QH-yə üzv ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri, ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatlarının rəhbərləri, media nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Daha sonra tədbirin proqramına uyğun olaraq Qoşulmama Hərəkatına üzv ölkələrin gəncləri milli qisimdə çıxışlar səsləndirib, yekun sənədləri müzakirə ediblər.

İyulun 29-dək davam edəcək sammitin müxtəlif seqmentləri çərçivəsində iştirakçılar tədbirin yekun sənədlərini müzakirə edəcək, QH modeli simulyasiya məşğələsi, eləcə də təşkilatların effektiv idarə edilməsi barədə təlim sessiyasında iştirak edəcək, müxtəlif rəsmilərin iştirakı ilə panel müzakirələrə qatılacaq, təqdimatlar keçirəcəklər.

# Azərbaycan ilə Gürcüstanın dövlət və hökumət başçılarının səyi nəticəsində münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

Gürcüstanda səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Hacı Allahşükür Paşazadə və onu müşayiət edən nümayəndə heyətinin üzvləri Tbilisidəki Cümə məscidində olublar.



AZƏRTAC xəbər verir ki, Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) şeyxi Hacı Ramin İgidov qonaqlara məscidin tarixi, burada saxlanılan nadir qədimi, mədəni və mənəvi abidələr barədə məlumat verib.

Ramin İgidov bu yaxınlarda ölkəmizin Gürcüstandakı səfirliyinin və SOCAR-ın dəstəyi ilə Azərbaycana səfərlərini xatırladıb, işğaldan azad edilmiş ərazilərdə gördükləri erməni vandalizmindən dəhşətə gəldiklərini bildirib. O, eyni zamanda Şuşada və işğaldan azad edilmiş digər ərazilərdə aparılan tikinti-quruculuq işlərindən həvəslə və razılıqla danışıb.

Rəhbərlik etdiyi qurum barədə məlumat verdikdən sonra R.İgidov deyib ki, bu gün Gürcüstanda 300-dən çox məscid var. Onlardan 28-i son illərdə tikilib, 300-ə yaxını təmir olunub.

Hacı Allahşükür Paşazadə Azərbaycan-Gürcüstan münasibətlərindən söz açıb. Bildirib ki, dövlət və hökumət başçılarının səyi nəticəsində bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hər iki ölkənin ali dini rəhbərləri arasındakı dostluq münasibətləri ölkələrimizin və xalqlarımızın əlaqələrini daha da möhkəmləndirir. Azərbaycan dövləti Gürcüstandakı soydaşlarımıza hər zaman diqqət və qayğı göstərib. Gürcüstan müsəlmanları da bu diqqətdən ayrı qalmayacaq.

Şeyxülislam A.Paşazadə Gürcüstanın azərbaycanlı icmasının dövlətçilik naminə gördüyü işləri yüksək qiymətləndirib. O, din xadimlərinə işğaldan azad olunan Qarabağ torpaqlarını ziyarətə görə minnətdarlığını bildirib, bu səfərin Azərbaycanda çox yüksək qiymətləndirildiyini vurğulayıb.

Görüşdə Azərbaycanda və Gürcüstanda mövcud olan tolerantlıq, dini qurumlar arasındakı əməkdaşlıq münasibətləri barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev də iştirak edib.

# Son 10 ilin uğur salnaməsi

## Möhtəşəm nailiyyətlər İlham Əliyevin genişmiqyaslı hədəflərə hesablanmış islahatlarının nəticəsidir

*Əvvəli 1-ci səh.*

Prezidentin təsdiq etdiyi bu inkişaf strategiyasında həm ötən 10 ilin uğur göstəriciləri, həm də qarşıdakı dövrdə hərtərəfli tərəqqinin konturları öz əksini tapıb. Strategiyanın Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər üzrə nailiyyətlər və çağırışlar bölümündə ilk olaraq son 10 ildə qazanılmış əsas nailiyyətlər öz əksini tapır.

10 illik sosial-iqtisadi inkişaf nailiyyətləri beş fundamental nəticəni xarakterizə edir - qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah.

Sənəddə qeyd edilir ki, bu nailiyyətlər uzunmüddətli dövrdə ölkə iqtisadiyyatı üçün keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf simasının formalaşmasına böyük töhfə verəcək. Əldə olunmuş nailiyyətlər son 10 ildə həyata keçirilən genişmiqyaslı hədəflərə hesablanmış islahatların nəticəsidir.

Tarixdə cəmi 30 il ərzində belə uğur hekayəsi yaza bilən az ölkə tapmaq olar. Azərbaycanın qısa zamanda sürətli yüksəlişi əlbəttə ki, düşünülmüş inkişaf konsepsiyasının uğurlu icrasının nəticəsidir desək, yanılmarıq.

İlk növbədə ölkənin tarixi ərazi bütövlüyünün bərpası iqtisadiyyatın perspektiv inkişafı ideyalarının reallaşmasına zəmin yaradıb.

Müzəffər Ali Baş Komandanın rəşadətli ordusu tərəfindən torpaqlarımızın işğaldan azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası xalqımızın çoxəsrlik tarixində misilsiz nailliyyətdir. Sənəddə deyildiyi kimi, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi 30 illik dövr ərzində Azərbaycanın daha da güclənməsi üçün aparılan uğurlu islahatların və uzaqgörən xarici siyasətin məntiqi nəticəsidir.

### Dördüncü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri

Son 10 ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlılıq təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Ölkədə möhkəm siyasi-ictimai sabitlik və təhlükəsizlik, uzaqgörən daxili və xarici siyasət qarşıya qoyulmuş mürəkkəb sosial-iqtisadi məqsədlərin, habelə ölkənin ərazi bütövlüyünün bərpa edilməsində həlledici rol oynayıb.

Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlıq xeyli artıb, iqtisadiyyat sürətlə şaxələnib və daxili istehsal qlobal dəyər zəncirinə effektiv inteqrasiya edib.

Azərbaycan Dördüncü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri olmaqla, xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilib. Bu dövrdə milli iqtisadiyyat 15 faiz böyüyüb, qeyri neft-qaz Ümumi Daxili Məhsul (ÜDM) isə 1,4 dəfə artıb. 2011-ci illə müqayisədə qeyri neft-qaz ixracının 78,3 faiz artmasına nail olunub.

Ötən 10 ildə Azərbaycan iqtisadiyyatı iki qlobal maliyyə böhranından uğurla çıxıb. Ölkə iqtisadiyyatı xarici təsirlərə davamlı olub. 2014-2015-ci illərdə qlobal əmtəə bazarında neftin qiymətinin 3 dəfəyə qədər azalması, 2020-ci ilin əvvəllərindən başlamış və davam etməkdə olan pandemiya böhranı ölkədə makroiqtisadi sabitlik üçün ciddi təhdidlər yaradıb. Bütün bunlara baxmayaraq, çevik və effektiv iqtisadi idarəetmə hesabına Azərbaycanda makroiqtisadi sabitlik, həmçinin əhalinin rifahı və sağlamlığı qorunmuşdur. 2021-ci ilin sonuna valyuta ehtiyatlarımız təxminən ÜDM-in həcminə bərabər olmuşdur ki, bu da milli iqtisadiyyatın xarici və daxili təsirlərə qarşı tam dayanıqlılığını əks etdirir.

Həyata keçirilən köklü struktur-institusional islahatlar nəticəsində milli iqtisadiyyatın strukturu dəyişmiş, qeyri-neft sektorunun payı xeyli yüksəlmişdi. 2012-2021-ci illərdə qeyri neft-qaz ÜDM-i hər il orta hesabla 3,5 faiz artaraq, 2011-ci ildəki 25,4 milyard manatdan 2021-ci ilə 57,8 milyard manata, qeyri neft-qaz sektorunun payı 2011-ci ildəki 48,8 faizdən 2021-ci ildə 62,2 faizə çatıb. Bu dövrdə iqtisadi artımın sahəvi hərəkətverici qüvvəsi olan qeyri neft-qaz sənayesi 2,3 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, informasiya və rabitə sahəsi isə 2,4 dəfə böyüyüb.

### 10 ildə minimum əməkhaqqı 2,7 dəfə, pensiyaların minimum məbləği 2,3 dəfə artıb

Qeyri neft-qaz sahələrinin, xüsusilə özəl təşəbbüslərin sürətli inkişafında xarici investisiyalar mühüm rol oynayıb. Təkcə 2011-2021-ci illərdə ölkənin qeyri neft-qaz iqtisadiyyatına bütövlükdə 11,1 milyard dollar həcmində birbaşa xarici investisiya yatırılıb. Xarici investisiyalar yüksək məhsuldar sahələrdə rəqabətli dəyər zəncirinin inkişafına və müasir infrastrukturun yaradılmasına yönəldilib.

Qlobal və daxili iqtisadi mühitdə baş verən dəyişikliklər dövlət büdcəsinin gəlirlərinə təsir etsə də, 2011-2021-ci illərdə dövlət büdcəsinin xərcləri nominal ifadədə 1,8 dəfə artıb. Dövlət borcunun daxili və xarici seqmentləri makroiqtisadi sabitlik və büdcə dayanıqlılığı hədəflərini dəstəkləyib. 2021-ci ilin 31 dekabr tarixinə məcmu dövlət borcu ÜDM-in 18,2 faizini təşkil edir ki, bu da fiskal dayanıqlılıq baxımından məqbul səviyyədir.

Son 10 ildə ölkədə inflyasiya iqtisadi fəallıq üçün məqbul olan səviyyədə qorunub. Bu dövrdə illik inflyasiya orta hesabla 5,3 faiz səviyyəsində olub.

İqtisadi artım ölkə vətəndaşlarının sosial rifahını yaxşılaşdırıb. Bu dövrdə minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq əməkhaqqı 2,0 dəfə, pensiyaların minimum məbləği isə 2,3 dəfə artıb. Aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımın təyin edilməsi məqsədilə istifadə olunan ehtiyac meyarının məbləği son 10 ildə 2,3 dəfə artırılaraq 2011-ci ildəki 75 manatdan 2021-ci ildə 170 manata çatdırılıb.

Ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilib. Aztəminatlı ailələrə verilən sosial yardımın orta aylıq məbləği 2,6 dəfə artırılaraq 2021-ci ildə 280 manata çatdırılıb. Həyata keçirilən tədbirlər nəticəsində, milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayan əhalinin xüsusi çəkisi 2019-cu ildə 2010-cu illə müqayisədə 9,1 faizdən 4,8 faizədək azalıb.

### Yüksələn təhsilə, keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlıq

Keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilər yaxşılaşıb. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müəllim-pedaqoq heyətinin inkişafı və motivasiyası diqqətdə saxlanılıb. Müəllimlər arasında aparılan müsabiqələr və müəllimlərin təkmilləşdirilməsi üçün həyata keçirilən tədbirlər, habelə müəllimlərin son 10 ildə əməkhaqlarının 2,4 dəfə artırılması ümumi təhsil məktəblərində keyfiyyətə müsbət təsir göstərib.

Ölkədə təhsilə çıxışın yaxşılaşdırılması məqsədilə müasir texnologiyaya əsaslanan təhsil infrastrukturu yaradılıb. 2003-2021-ci illərdə 3400-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib ki, bu da bütün məktəblərin 76 faizini təşkil edir.

Elmi tədqiqat potensialı müasirləşdirilib, tətbiqyönlü tədqiqatların aparılması genişləndirilib, müasir texnologiyaların tətbiqi imkanları yaranıb və bu prosesdə əqli mülkiyyətin rolu artırılıb. Elmin müxtəlif sahələri üzrə tədqiqatlara dair nəşrlərin sayı sürətlə artıb. Son 5 ildə akademik nəşrlərin sayı 80 faiz artıb və Cənubi Qafqaz ölkələri arasında Azərbaycan bu göstərici üzrə 2018-ci ildən etibarən hər il mütəmadi olaraq birinci yerdə qərarlaşıb.

Bu dövrdə həmçinin keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlıq davamlı olaraq yaxşılaşıb. Nəticədə, ölkədə ana və uşaq ölümü göstəriciləri azalıb, gözlənilən sağlam ömür uzunluğu isə artıb.

Son illərdə dünya iqtisadiyyatında baş verən dəyişikliklər fonunda koronavirus pandemiyasının təhdidləri uğurla aradan qaldırılıb. Qlobal rəqabətin əsas faktoru kimi keyfiyyətli insan kapitalı, texnoloji modernizasiya və dayanıqlı iqtisadi artım öz mühümlüyünü saxlayır. Lakin yeni sənayeləşmədə texnoloji dəyişikliyə uyğunlaşmaq üçün bütün ölkələr strateji həllərin tətbiqinə başlayıb. Bu dəyişikliklərin təsirlərini minimallaşdırmaq üçün ölkədə yüksək sosial-iqtisadi rifah və potensial formalaşdırılıb.

Bütün bunlar əlbəttə ki, iqtisadi müstəqilliyin bariz təcəssümüdür. Prezident İlham Əliyevin son 10 ildə həyata keçirdiyi islahatlar, sosial-iqtisadi layihələr böyük nailiyyətlərin əldə edilməsini şərtləndirib.

Bu uğurlu göstəricilər onu deməyə əsas verir ki, Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan tədbirlər planının vaxtında reallaşması, hədəflərin doğru müəyyənləşdirilməsi ölkəmizin qarşıdakı dövrdə də hərtərəfli sürətli inkişafını təmin edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Müstəqil siyasətin beynəlxalq nailiyyətləri

*Əvvəli 1-ci səh.*

Dövlət rəhbərimizin müşavirədə toxunduğu məsələlər sırasında Azərbaycanın beynəlxalq əməkdaşlığı məsələsi xüsusi yer tuturdu. Cari ilin 6 ayının nəticələri ölkəmizin bu sahədə də məqsədyönlü addımlarını uğurla davam etdirdiyini və Azərbaycanın beynəlxalq nüfuzunun daha da artdığını göstərir. Müstəqil siyasət apararaq sülhə, inkişafa, insanların rifahına töhfə verən, bölgədə əməkdaşlıq mühiti yaratmağa çalışan, haqq savaşındakı qələbəmizlə ərazi bütövlüyünü bərpa edən ölkəmiz üçün bütün bunlar çox əhəmiyyətlidir.

### Azərbaycana olan beynəlxalq inam

Prezident İlham Əliyev bu il beynəlxalq münasibətlər sahəsində qazanılmış nəticələr sırasında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini xüsusi vurğuladı. Ölkəmizin bu təşkilata 2019-cu ildən uğurla rəhbərlik etdiyini, bu statusda mükəmməl bir nümunə yaratdığını, təşkilatın inkişafına böyük tarixi töhfələr verdiyini nəzərə alaraq Qoşulmama Hərəkatı təmsilçisi olan ölkələrin yekdil rəyi ilə Azərbaycanın quruma sədrliyi daha bir il - 2023-cü ilə qədər uzadılıb. Qoşulmama Hərəkatında 120 ölkə təmsil olunur. Bu təşkilat BMT-dən sonra bütün dünyada ölkələri bir araya gətirən ikinci ən böyük təşkilatdır. Azərbaycan haqqında verilən müvafiq qərar bir tərəfdən dövlətimizin bu qədər ölkə arasında qazandığı yüksək nüfuzunun göstəricisidir, digər tərəfdən də Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın bu təşkilatın fəaliyyətinə verdiyi töhfələrə ədalətli qiymətdir. Eyni zamanda bu ölkələrin Azərbaycana olan güclü inamının ifadəsidir.

Azərbaycanın sədrlik müddətində Qoşulmama Hərəkatının inkişafı ilə bağlı gördüyü işlər sırasında təşkilatın institusional inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər xüsusi yer tutur. Bildiyimiz kimi, iyunun sonunda Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yaradıldı və Parlament Şəbəkəsinin ilk toplantısı keçirildi. Belə bir şəbəkənin yaradılması Azərbaycanın təşəbbüsüdür. Qoşulmama Hərəkatının fundamental dəyər və prinsiplərinin təşviqində, təşkilata üzv dövlətlər tərəfindən qəbul edilmiş qərarlara parlament dəstəyinin təmin olunmasında belə bir platforma çox mühüm rol oynayacaq. Təşkilatın Parlament Şəbəkəsinin fəaliyyəti Qoşulmama Hərəkatına üzv dövlətlər üçün ümumi maraq kəsb edən məsələlərin həllinə parlamentlərin töhfə verməsinə imkan yaradacaq. Bu şəbəkə qlobal risk və təhdidlərə qarşı mübarizədə yeni çoxtərəfli əməkdaşlıq platforması rolunu da oynayacaq.

Bunun ardınca təşkilatın Gənclər Şəbəkəsinin formalaşdırılması kimi mühüm təşəbbüslər də var. Qoşulmama Hərəkatının Bakıda keçirilmiş toplantısı bu Hərəkatın çox böyük potensiala malik olduğunu, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün çox önəmli platforma kəsb etdiyini göstərdi. Azərbaycan da Qoşulmama Hərəkatının imkanlarından bəşəriyyətin rifahı naminə məqsədyönlü istifadə üçün çalışır, bu istiqamətdə gücünü əsirgəmir, dövlətimizə olan inamla imkanları reallığa çevirir.

Azərbaycan bu inamı sözünə sadiqliyi, verilən bəyanatlarla atılan addımların bir-birini tamamlaması, həlledici anlarda məsuliyyətli davranışları ilə qazanıb. Ölkəmiz beynəlxalq qurumlarla münasibətlərində dəyərli nümunə yaradır. Ortaya mükəmməl örnəklər qoyur.

COVID-19 pandemiyasının bütün dünyanı çənginə aldığı ən ağır vaxtlarda Azərbaycan dövləti öz vətəndaşlarını bu bəladan qorumaq üçün ardıcıl tədbirlər görməklə yanaşı, ehtiyac içində olan, əhalisi çarəsizlikdən kütləvi ölüm təhlükəsi ilə üzləşmiş ölkələri də unutmadı. Bu məsələdə həmrəylik göstərdi və digərlərini də öz nümunəsində buna çağırdı. Ən ağır dövrdə 80-dən çox ölkəyə humanitar və maliyyə dəstəyi göstərdi. Bütün bunlar, təbii ki, ölkəmizin beynəlxalq nüfuzunu daha da yüksəldir.

### Milli maraqlar hər şeydən üstündür

Dövlət rəhbərimiz müşavirədə Avropa İttifaqı ilə əlaqələrin inkişafı məsələlərinə də diqqət yönəltdi. Bildirdi ki, hazırda Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır.

Azərbaycanla Avropa İttifaqı arasında çox yüksəksəviyyəli münasibətlər, sıx əməkdaşlıq mövcuddur. Bu, cənab İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə münasibətlərində, qarşılıqlı səfərlər və yüksəksəviyyəli dialoqda, birgə fəaliyyətin real nəticələrində özünü aydın şəkildə göstərir.

Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri, Azərbaycanla imzalanmış memorandum da ikitərəfli əlaqələrin yüksək səviyyəsinin göstəricisidir. Enerji təhlükəsizliyi ilə bağlı imzalanmış bu memorandum əməkdaşlığımızın daha da önə, irəliyə keçməsinə zəmin yaratdı. Bu gün imzalanan memorandum gələcək üçün bir növ yol xəritəsidir deyən Prezident İlham Əliyev xüsusi vurğuladı: "Nəzərə alsaq ki, əvvəlcə planlaşdırdığımız bütün məsələlər tərəfimizdən icra olunub, əminəm, bundan sonra da böyük uğurlara imza atacağıq. Bu gün müzakirə etdiyimiz digər məsələlər sırasında şəbəkələrin qurulması məsələsi oldu. Azərbaycanın coğrafi mövqeyini və müasir daşımalar infrastrukturunu nəzərə alaraq, biz potensialımız arasında şəbəkənin qurulması üzərində daha fəal çalışmalıyıq. Burada, Xəzərin qərb sahilində Azərbaycanın Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur imkanları, gəmiqayırma imkanları, yeni dəniz limanı, bütün qonşularımızla bizi birləşdirən dəmir yolları var. Buna görə də münasibətlərimizdə şəbəkənin enerji qədər vacib olmasına yönələn birgə səylərə böyük ehtiyac duyulur".

Azərbaycan Avropa İttifaqı ilə münasibətlərin inkişafında, hər iki tərəfin bu münasibətlərdən faydalana bilməsində maraqlıdır. Eyni zamanda ölkəmiz Avropanın aparıcı qurumlarının öz prinsiplərinə sadiqlik göstərməsini, bununla da öz nüfuzunu, ölkələrin bu qurumlara olan inamını qorumasını, problemlərin həllinə hər kəs üçün məqbul sayılan təsir imkanlarına malik olmasını arzulayır. Bu mənada Avropa Parlamentinin nümayəndə heyətini qəbul edərkən Azərbaycan Prezidentinin səsləndirdiyi müəyyən iradlar, tənqidi fikirlər adıçəkilən təşkilatda zaman-zaman ayrı-ayrı lobbi qruplarının ölkəmizə qarşı həyata keçirməyə çalışdıqları təxribatlara, qəbul olunmuş qeyri-obyektiv sənədlərə münasibətin də açıq ifadəsi idi.

Bir müddət əvvəl Avropa Parlamentində erməni lobbisinin dəstəyi ilə guya Qarabağda "erməni mədəni irsinin dağıdılması" ilə bağlı qəbul olunmuş qətnaməni yada salaq. Əvvəlki vaxtlarda da bu kimi sənədlər qəbul edilib və bu vasitə ilə Azərbaycana təsir göstərmək cəhdləri olub. Ermənilərin təxminən 30 illik işğal dövründə Azərbaycan ərazilərində törətdikləri dəhşətli vandalizm əməllərini, tarixi abidələrimizi, məscidlərimizi və digər müqəddəs yerlərimizi, mədəniyyət obyektlərimizi yerləyeksan etdiklərini görən Azərbaycan vətəndaşı Avropa Parlamentinin bu mövqeyini necə təmkinlə qarşılaya bilər?! Harada yaşamasından asılı olmayaraq, regiondakı prosesləri diqqətlə izləyən, reallıqları obyektiv təhlil imkanlarına malik olan istənilən şəxsi Avropa Parlamentinin bu məsələdə ədalətli mövqeyinə necə inandırmaq olar?! Bu qətnamə, ikili standartların, Avropanın əsas dəyərlərindən olan ədalətin pozulmasıdır. "Biz həmin mövqeni tamamilə əsassız hesab edirik. Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam. Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir. Xüsusən də Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilmişdir. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil", - dedi Azərbaycan Prezidenti. Burada söhbət təkcə Azərbaycana münasibətdən də getmir. Avropa Parlamenti kimi üzərinə böyük bir missiya götürmüş təşkilat onu nüfuzdan salan, inamsızlıq aşılayan bu cür qeyri-adekvat davranışları özünə rəva bilməməlidir.

Azərbaycan beynəlxalq münasibətlərdə fəal rol oynayan, o cümlədən Avropa təşkilatları ilə də əməkdaşlıqlara mühüm önəm verən ölkə kimi, Avropa Parlamenti ilə sağlam, qarşılıqlı faydalı əsasda münasibətlərin inkişafına hazırdır. Görüş zamanı Prezident İlham Əliyev bunu bir daha diqqətə çatdırdı. Amma bu qurum da öz növbəsində Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrinin inkişafına problem yaratmamalı, ilk növbədə ümumavropa maraqlarından çıxış etməli, Avropa İttifaqının partnyorları ilə konstruktiv münasibətlər formalaşdıraraq bunu inkişaf etdirməlidir.

Həmin görüşdə tutduğu mövqeyi, diqqətə çatdırdığı məqamları ilə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin dövlət maraqlarını hər şeydən üstün tutduğunu, milli mənafelərimizin müdafiəsini başlıca vəzifələrindən hesab etdiyini və respubliamızın haqq mövqeyindən heç zaman geri çəkilmədiyini bir daha göstərdi.

### Beynəlxalq əlaqələr daxili məsələlərin də uğurla həllinə imkan yaradır

Azərbaycan türk dünyasının aparıcı ölkələrindən biri kimi bu coğrafiyada da mövqelərini gücləndirir, türkdilli dövlətlərin birliyinə ardıcıl töhfələr verir, bu ölkələrlə münasibətləri inkişaf etdirir. Ölkəmizin Türk Dövlətləri Təşkilatı çərçivəsində göstərdiyi fəallıq, təşəbbüskarlıq bunun təsdiqidir. Azərbaycan türk dövlətləri ilə əlaqələrin inkişafına prioritet məsələ kimi yanaşır. Azərbaycanın fəal rolu əsasında türkdilli ölkələrlə getdikcə inkişaf edən münasibətlər həm ölkələrin bir-birinə qarşılıqlı siyasi dəstəyində, həm mühüm qlobal layihələr üzrə qurulan tərəfdaşlıqlarda, ikitərəfli və çoxtərəfli formatda aparılan müzakirələrdə, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində öz ifadəsini tapır.

Azərbaycan bütün bunlara paralel şəkildə Rusiya, İran, Gürcüstan kimi qonşularımızla da münasibətləri inkişaf etdirir. Dövlət rəhbərimizin bu ölkələrin prezidentləri ilə keçirdiyi görüşlər, apardığı müzakirələr qarşılıqlı hörmət, mehriban qonşuluq, müştərək fayda prinsiplərinə əsaslanan münasibətlərə böyük töhfə verir.

Bu il ərzində Amerika-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində də mühüm addımlar atılıb, yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil olunub. ABŞ prezidentinin həm Müstəqillik Günü münasibətilə, həm də Bakı Enerji Həftəsinin açılışı ilə bağlı Azərbaycan Prezidentinə göndərdiyi məktublar, zəngin tarixə əsaslanan Azərbaycan-Amerika münasibətlərinin həm də böyük gələcəyindən xəbər verir.

Prezident İlham Əliyev müşavirədə bir daha vurğuladı ki, beynəlxalq əlaqələr, bölgədə və bütövlükdə dünyada aparılan siyasət Azərbaycana problemləri daha böyük uğurla həll etməyə imkan verir. İlk növbədə qonşuluqda, digər tərəfdən isə ümumən dünyada müsbət beynəlxalq fonun mövcudluğu daxili siyasəti düzgün aparmaqdan ötrü hər bir ölkə üçün mühüm amildir.

### Ermənistan öhdəliklərinin icrasından boyun qaçırır

Bu baxımdan, Azərbaycan Vətən müharibəsindəki qələbəsindən, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Ermənistanla tez bir zamanda sülhün əldə olunmasında maraqlıdır. Məcburən kapitulyasiya aktına imza atmış Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən hələlik boyun qaçırmağa çalışması, əfsus ki, sülhə mane olur. Vətən müharibəsindən 1 il 8 ay ötsə də, Ermənistan hələ də öhdəliklərini yerinə yetirmək istəmir. Sülhə doğru ortada olan cüzi nəticələr də Azərbaycanın təşəbbüsünün və ardıcıl cəhdlərinin nəticəsidir. Məhz Azərbaycanın təşəbbüsü ilə delimitasiya üzrə işçi qruplarının birinci görüşü keçirilib. Bu, daha çox tanışlıq xarakteri daşısa da, hər halda ilk müsbət addım sayıla bilər. Sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipinin Ermənistan tərəfindən qəbul olunması, Ermənistan rəhbərliyinin rəsmən bu beş prinsipi qəbul etməsi də ölkəmizin təşəbbüsünün, sülh niyyətinin nəticəsidir.

Azərbaycan 10 noyabr Bəyannaməsində üzərinə götürdüyü öhdəliklərin hər birinə əməl edib, bu məsələdə də sözünə sadiqlik göstərib. O cümlədən Bəyannaməyə uyğun olaraq Laçın yolunun təhlükəsizliyini təmin edib. Bunun müqabilində Ermənistan öz öhdəliklərinin icrasını yubadaraq Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin qurulmasına hələ də şərait yaratmır, bu istiqamətdə heç bir iş görmür. Bu günə qədər Zəngəzur dəhlizinin Mehri hissəsində tikiləcək dəmir yolunun texniki-iqtisadi əsaslandırılmasının hazırlanmaması, avtomobil yolunun marşrutunun təqdim olunmaması Ermənistanın qeyri-müəyyən niyyətlərindən, konkret öhdəliklərindən yayınmaq cəhdlərindən xəbər verir. Son vaxtlar Ermənistan rəhbərinin yenə hansısa status haqqında danışmağa başlaması da bu cəhdlərin davamıdır. Amma reallıq ortadadır: müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında status məsələsinə toxunulmaması barədə şifahi razılaşma olub. Ermənistan müəyyən müddət buna əməl etsə də, son zamanlar bu məsələnin adi hala çevrilməsi, status söhbətinin təkrarlanması Ermənistan üçün təhlükəli vəziyyət yaradır. Həmçinin 28 il ərzində münaqişənin yoluna qoyulması ilə bağlı heç bir ciddi nəticəyə nail ola bilməmiş Minsk qrupunu yenidən diriltmək cəhdləri də sülh prosesini pozmaqdan başqa bir şey deyil. Minsk qrupunun artıq fəaliyyətsiz olduğunu, digər həmsədrlərin bu instituta son qoyduqlarını qurumun həmsədrlərindən olan Rusiya belə etiraf edir. Bu halda Minsk qrupu adı ətrafında manipulyasiyalar əbəs və faydasızdır.

Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi kimi, "dəmir yumruq" yerindədir. Ermənistan on illərlə yol verdiyi tarixi səhvlərdən nəticə çıxarıb öhdəliklərini yerinə yetirməli, regionda sülhə, əməkdaşlığa, qarşılıqlı inkişafa çalışmalıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR



# Ağalı kəndində iki və üçmərtəbəli mənzil tipli daha 150 evin tikilməsi planlaşdırılır



**"Zəngilana həyat yenidən qayıdır. Bu günlər ilk köçün həyata keçirildiyi Zəngilanda bərpa-quruculuq və köçürülən əhalinin rifahının yaxşılaşdırılması üçün işlər sürətlə davam etdirilir. İşğal illərində tamamilə dağıdılmış Zəngilanın hazırda bərpası bütünlüklə Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun şəkildə həyata keçirilir".**

Bu sözləri AZƏRTAC-a müsahibəsində Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib.

"Zəngilanın Ağalı kəndinə 45 nəfərdən ibarət 10 ailənin köçürüldüyü üçüncü köç həyata keçirilib. Ümumilikdə 41 ailənin 201 üzvünün köçürülməsi nəzərdə tutulur. Ağalı kəndində əhalinin sosial rifahının yaxşılaşdırılması üçün məşğulluq məsələləri, başda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olmaqla dövlət qurumlarının xüsusi nəzarəti altındadır. İndiyədək köçürülən əhalinin bir hissəsi artıq işlə təmin edilib. Yaxın günlərdə əmək yarmarkasının keçirilməsi planlaşdırılır və əmək qabiliyyətli əhalinin qalan digər hissəsinin də işlə təmin edilməsi nəzərdə tutulur", - deyə Vahid Hacıyev vurğulayıb.

Hazırda Ağalı kəndində 200 evin inşası başa çatdırılıb, daha 150 evin, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin tikilməsi də planlaşdırılır. Bundan başqa, uşaq bağçası, məktəb və bir neçə inzibati bina da istifadəyə verilib.

# Bizə qələbə sevincini yaşadanları diqqət və qayğıkeşlik yaşadır

Prezident İlham Əliyev bütün dövlət qurumları və məmurların qarşısında şəhid ailələrinin və qazilərin problemlərinin həllini bir nömrəli vəzifə kimi qarşıya qoyub.

Bunun nəticəsidir ki, şəhid ailələrinin və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, o cümlədən onlara fərdi evlərin və mənzillərin, eləcə də avtomobillərin verilməsi istiqamətində mühüm addımlar atılır. Bundan başqa, qazilərin sağlamlığının qorunması, onların müasir protezlərlə təminatı, reabilitasiya kurslarını keçməsi üçün də mühüm işlər görülür.

Şəhid ailə üzvlərinin, Vətən müharibəsindəki döyüşlərdə yaralanmış və müxtəlif xəsarətlər almış qazilərin sağlamlıqlarının bərpası və qorunmasında Naftalanda fəaliyyət göstərən "Möcüzəli Naftalan" Sağlamlıq Mərkəzinin adı tez-tez çəkilir. Müasir tibbi avadanlıqların quraşdırıldığı və yüksəkixtisaslı peşəkar həkimlərin çalışdığı "Möcüzəli Naftalan"da eyni vaxtda 300-dən artıq xəstənin müalicəsi mümkündür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişi əsasında təyinat alan pasiyentlərə ümumi tibbi yoxlanışdan sonra zəruri müalicə kursu təyin edilir. Mərkəzdə hazırda həm I Qarabağ, həm də Vətən müharibələrinin iştirakçılarına yüksək tibbi xidmət göstərilir və effektiv bərpa-müalicə xidmətləri göstərilir.

Müəssisənin direktoru Qoca Əmiraslanov söhbət zamanı dedi ki, mərkəzdə əsasən dayaq hərəkət sistemindən, oynaq və digər xəstəliklərdən əziyyət çəkənlər müalicə olunurlar. Burada həmin xəstəliklərin müalicəsi üçün masaj, müalicəvi bədən tərbiyəsi, fizioterapiya, iynə ilə müalicə, ozonaterapiya, hidropolonoterapiya, həmçinin möcüzəvi təsirə malik Naftalan neft vannası kabinələri fəaliyyət göstərir. Müalicə 14 gün davam edir.

Biz də sağlamlıq mərkəzində olarkən qazilərə və şəhid ailələrinə göstərilən yüksək tibbi xidmətin şahidi olduq. Mərkəzdə hər bir Vətən müharibəsi qazisinə, eləcə də şəhid ailələri üzvlərinə diqqətlə yanaşılır. Müalicə procedurundan yenicə çıxmış və əslən Qobustan rayonundan olan qazi Pərviz Süleymanovla görüşdük. Məlum oldu ki, Pərviz Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 5-də yaralansa da, müalicə olunduqdan sonra yenidən döyüşlərə atılıb. Sonralar səhhətində problemlər yaranıb. Odur ki, "Möcüzəli Naftalan"da müalicəyə başlayıb.

Dövlətin ona göstərdiyi qayğıkeşlikdən danışan Pərviz razılıqla bildirdi ki, onun xidməti yüksək dəyərləndirilib. Dövlət başçısının sərəncamları ilə 8 medala layiq görülüb, avtomobil və ev növbəsinə götürülüb. Hazırda mərkəzdə aldığı müalicədən də razıdır.

Söhbət zamanı öyrəndik ki, qardaşı Rais Süleymanov da müharibəyə könüllü gedib. O, Füzulinin Alxanbəyli kəndində minaya düşüb. Nəticədə bir ayağı amputasiya olunub. Hazırda yüksək məbləğdə təqaüd alır, avtomaşınla təmin edilib.



Şəhid anası Zenfira Dadaşova, Vətən müharibəsi qazisi Elmar Rzayev və başqaları da dedilər ki, sağlamlıq mərkəzində hər cür qayğıkeşliklə əhatə olunublar, müalicələri vaxtlı-vaxtında aparılır. Bütün bunlar isə dövlətin hər zaman onların yanında olmasını göstərir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Suqovuşandan gələn su ilə Tərtərdə əkin sahələri suvarılır

Tərtər rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün bir sıra işlər görülür.



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətdən AZƏRTAC-a bildirilib ki, bunun üçün Tərtər Suvarma Sistemləri İdarəsi tərəfindən meliorativ tədbirlər həyata keçirilir. Artıq bu ilin məhsulu üçün əkilmiş taxıl, arpa, yem və yonca bitkilərinin suvarılması aparılıb, taxılın biçini isə yekunlaşıb. Bundan başqa, Tərtər rayonunda bu il 3450 hektar sahədə pambıq da əkilib. Pambığın suvarılması da plana uyğun olaraq yerinə yetirilir. Hazırda Suqovuşan su anbarından gələn su vasitəsilə rayonda suvarma davam edir.

Tərtər Suvarma Sistemləri İdarəsi tərəfindən su itkisinin qarşısının alınması üçün torpaq məcralı kanalların lildən və kol-kosdan təmizlənməsi işləri də hazırda davam etdirilir. Bu istiqamətdə su itkisini minimuma endirmək üçün torpaq məcralı kanalların beton üzlüyə alınması da nəzərdə tutulub. Belə ki, cari ildə 2.2 km uzunluqda kanalın beton üzlüyə alınması planlaşdırılır. Bundan başqa, idarənin balansında olan 4 ədəd subartezian quyusunun da təmir-bərpasına start veriləcək.

Qeyd edək ki, Tərtər Suvarma Sistemləri İdarəsi rayon ərazisində 29133 hektar əkin sahəsinə xidmət edir. Rayonda suvarma Tərtərçay, subartezian, İncəçay və Yuxarı Qarabağ kanalı üzərində yerləşən Bəyimsarov nasos stansiyası ilə həyata keçirilir.

# Qazaxda şəhid övladları üçün oyun və əyləncə parkı salınıb

Qazax şəhərində fəaliyyət göstərən "İstanbul" Ailəvi İstirahət Mərkəzində şəhid övladları üçün yaradılmış "Hüsniyə Mutlu" oyun və əyləncə parkının açılışı olub.

"Çocuk oyunla, dünya çocukla gözəldir!" şüarı altında yaradılmış park təkcə Türkiyə-Azərbaycan arasındakı qardaşlıq münasibətinin deyil, canını Vətən üçün fəda edən qəhrəman oğullarımızın bizlərə əmanət olan övladlarına sahib çıxmağımızın əyani göstəricisidir.

Şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Rəcəb Babaşov qonaqları və tədbir iştirakçılarını, şəhid ailələrini salamlamış, qardaş Türkiyənin azərbaycanlı körpələrə, xüsusilə şəhid övladlarına böyük töhfəsi olan oyun və əyləncə parkının yaradılmasında əziyyəti keçənlərə rayon ictimaiyyəti adından minnətdarlığını bildirmişdir.

Sonra Mehmet Mutlu, Zeki Öztürk, Orhan Osmanoğlu, Mustafa İlicalı, Yusif Dastan, eləcə də Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal, Çocuq Oyunları və Spor Klubları Federasiyasının Azərbaycan üzrə başkanı, "İstanbul" Ailəvi İstirahət Mərkəzinin rəhbəri Zaur Əhmədov, Vətən müharibəsi şəhidləri İzzət Həmidovun anası Vəfa İsmayılova və gizir Sərxan Abdullayevin atası Elxan Abdullayev çıxış etmişlər.



Açılış mərasimində Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Türkiyədən olan qonaqlar - Uşaq Oyunları və Spor Klubları Federasiyasının rəhbəri Mehmet Mutlu, türkiyəli professor Mustafa İlıcalı, Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki baş konsulu Zeki Öztürk, Osmanlı nəslinin davamçısı, Sultan Abdulhəmidin nəvəsi Orhan Osmanoğlu, Ümraniyə bələdiyyəsinin keçmiş başkanı Hasan Can, İPAR Macəra və Oyun Parkları Dərnəyinin Yönətim Kurulu Başkanı Yusuf Daştan, Park kent şirkətinin nümayəndəsi Əmrə Ulusoy, Tanrıkulu şirkətinin sahibi Mustafa Tanrıkulu və başqaları iştirak etmişlər.

Parkın açılışını bildirən qırmızı lent kəsildikdən sonra park şəhid övladlarının, tədbirə qatılan fidanların ixtiyarına verilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Qusarda taxıl yığımı davam edir



Rayonda bu il 23304 hektarda taxıl əkini aparılıb. Ondan 15120 hektarı buğda, 8184 hektarı arpadır. Zamanında torpağa aqrotexniki qulluq edildiyindən, ziyanvericilərə qarşı proflaktik tədbirlər görüldüyündən zəmilərdə bol məhsul yetişib.

Biçinə başlayanda yağışların yağması kombaynların sahələrə çıxmasına bir müddət mane olsa da, sonradan havaların isti keçməsi fermerlərin işinə yaradı. Hazırda sahələrdə 64 kombayn elin bərəkətini biçir. Yaxın günlərdə ətraf rayonlardan daha 20-yə yaxın kombaynın köməyə gələcəyi gözlənilir.

Havaların küləkli keçməsi nəzərə alınaraq biçilmiş sahələrin küləşini presləmək üçün 29 pres və 186 traktor cəlb edilib. Bu günədək biçilən sahələrin hamısı şumlanıb. Rayonun yerli icra strukturu və bələdiyyələr növbəlilik prinsipi ilə biçinə hazırlanan sahələri nəzarətdə saxlayır. Çünki yaxın rayonlarda baş verən yanğın artıq vaxtında hərəkət etməyi tələb edir.

Hazırda biçin davam edir. Mütəxəssislər havalar normal keçərsə, yaxın bir neçə günə biçinin sona çatacağını bildirirlər. Amma unutmayaq ki, dağlıq ərazilərdə havalara bel bağlamaq olmaz. Bütün hallarda ümid edək ki, qusarlılar üçün də təbiət öz səxavətini əsirgəməyəcək.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Naxçıvanda elektriklə işləyən taksilərin təqdimatı olub

Muxtar respublika rəhbərinin tapşırığı və dəstəyi ilə daha 2 ədəd elektriklə işləyən nəqliyyat vasitəsi taksi xidməti kimi fəaliyyət göstərmək üçün sərnişinlərin istifadəsinə verilib. "CHANGAN AUCHAN" markalı bu nəqliyyat vasitələri 7 yerlikdir (6+1). Tam yüklü batareya ilə 300-350 kilometr məsafə qət edə bilir.

AZƏRTAC xəbər verir ki, Naxçıvan şəhərindəki avtobus parkında keçirilən elektriklə işləyən taksilərin təqdimatında bu sözləri "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsin direktoru Əli Hüseynəliyev deyib.

Əli Hüseynəliyev qeyd edib ki, taksilərdə batareyaların tam dolması üçün ev şəraitində (220 V) 5-7 saat, şarj aparatı ilə 100 dəqiqə kifayət edir. Nəqliyyat vasitəsinin sürət həddi 200 km/saatdır. Avtomaşın kondisioner və qızdırıcı sistemlə təmin olunub. Maşınların öndən və arxadan görüntü kameraları vardır. Bu da baş verə biləcək hadisələrin araşdırılmasına köməklik göstərəcək. Həmçinin ABS əyləc sistemi, elektrikli pəncərələr (ön və arxa tərəf), arxa park radar sistemi mövcuddur. Elektriklə işləyən bu maşınlar ekoloji cəhətdən təmiz, yanacaq sərfi baxımdan qənaətcildir. Elektriklə işləyən nəqliyyat vasitələrinin şəhərimizdə xəttə buraxılması sərnişindaşıma səviyyəsinin daha da yüksəldilməsinə töhfəsini verəcək.



Diqqətə çatdırılıb ki, istifadəyə verilən yeni taksiləri işlətmək üçün işə götürülən sürücülər diqqətli olmalı, maşınların sazlığına daim nəzarət etməli, texniki qulluğu vaxtında həyata keçirməli, sərnişinlərə daha yüksək səviyyədə xidmət göstərməli, "288" taksi xidməti ilə sıx əlaqədə işləməlidirlər.

Sonra tədbir iştirakçıları istifadəyə verilən yeni taksilərlə əyani tanış olublar.

Qeyd edək ki, bu il mayın 13-də "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsinə 6 yeni elektrobus təqdim olunub. Elektriklə işləyən nəqliyyat vasitələri müasir sərnişindaşıma xidməti göstərməklə bərabər, ekologiyanın çirklənməsinin də qarşısını alır.

# Şərurda telekommunikasiya şəbəkəsi yenidən qurulur

**Muxtar respublikanın kənd yaşayış məntəqələrində aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri çərçivəsində müasir rabitə infrastrukturu yaradılır, yeni avadanlıqlar quraşdırılmaqla xidmətlərin səviyyəsi ilbəil yüksəldilir.**

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Şərur rayonunun Zeyvə, Qarxun, Aşağı Aralıq, Püsyan, Mahmudkənd, Sərxanlı, Düdəngə, Oğlanqala, Məmmədsabir və digər kəndlərində sakinlərin qarşılaşdığı rabitə xidmətləri ilə bağlı problemlərin aradan qaldırılması üçün yararsız rabitə dirəkləri dəyişdirilib, müxtəliftutumlu kabellər istifadə edilərək rabitə xətlərindəki nasazlıqlar aradan qaldırılıb. Şərur Sənaye Məhəlləsinə və Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinə inşa olunmuş kabel kanalizasiya qurğuları vasitəsilə yeraltı olaraq fiber-optik xətlər çəkilib. Müraciətlərə uyğun olaraq abonentlərə texniki dəstək və metodiki köməkliklər göstərilib.



# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR dirçəliş yolundadır



## *İlqar MÖNSÜMOV:* "Avqustun əvvəlindən Ağalı kəndinə insanların köçürülməsinin ikinci mərhələsi başlayacaq"

"Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi başa çatdı. Belə ki, bu gün Ağalıya dördüncü köç karvanı yola salındı. Daha 10 ailə - 58 nəfər yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşacaq".



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Zəngilan Rayon İcra Hakimiyyətinin Ağalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçisi İlqar Mönsümov söyləyib.

O qeyd edib ki, Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası Prezident İlham Əliyevin tapşırığına əsasən, Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin birləşməsi nəticəsində ərsəyə gəlib.

İlqar Mönsümov hazırda Ağalı kəndində insanların yaşaması üçün hər cür şərait yaradıldığını vurğulayıb. "Avqustun əvvəlindən Ağalı kəndinə insanların köçürülməsinin ikinci mərhələsi başlayacaq", - deyə İ.Mönsümov əlavə edib.

## *Ağalı sakini:* "Zəngilana köçmək indiyədək yaşadığım bütün ağrı-acıları unutdurur"

"Doğma kəndimizə getdiyimiz üçün çox sevinirik. Bu günləri yaşadığımız üçün dövlətimizin başçısına, ordumuza borcluyuq. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı, uzun ömür arzulayırıq".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ağalıya köçən kənd sakini Bəxtiyar Abdullayev söyləyib.

Zəngilanı tərk edəndə gənc olduğunu xatırladan Bəxtiyar Abdullayev həmin hadisələri kədərlə yada salsa da, hazırda xoşbəxt olduğunu bildirib. Qeyd edib ki, Zəngilana köçmək ona indiyədək yaşadığı bütün ağrı-acıları unutdurur.

## *Ağalının azyaşlı sakini:* "İnsanların öz yurduna qayıtmasını görmək bizim Zəngilana köçmək həvəsimizi daha da artırır"

"On bir yaşım var. Zəngilanda olmasam da, televiziya və yaxınlarım vasitəsilə ata yurdum haqqında geniş məlumatlar əldə etmişəm".



Bunu AZƏRTAC-a müsahibəsində Ağalıya köçən gənc sakin İbrahim Səmədli söyləyib.

Doğma yurduna getdiyi üçün çox sevincli olduğunu deyən İ.Səmədli bildirib: "Hər zaman haqqında eşitdiyim Zəngilanı bu gün görəcəyəm. İnsanların öz yurduna qayıtmasını görmək bizim Zəngilana köçməyə həvəsimizi daha da artırır".

## *Ağalıya köçən kənd sakini:* "Bu gözəl gün münasibətilə xalqımızı təbrik edirəm"



"Bu gözəl gün münasibətilə xalqımızı təbrik edirəm. Uzun illərdir ki, bu gözəl günləri gözləyirdik. Ağalı kəndinə gedənlərin sağ əli digər köçmək istəyənlərin başına olsun. Keçirdiyimiz sevinc hissini hər kəsə arzu edirəm".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ağalıya köçən kənd sakini Xaliq Quliyev söyləyib.

O qeyd edib ki, öz doğma yurduna köçməyi səbirsizliklə gözləyən insanlar var. Bu an onlara da qismət olar.

## *Solmaz VƏLİYEVA:* "Arzuladığımız, xəyal etdiyimiz Ağalı bu gün bizləri gözləyir"

"Zəngilandan ayrılanda gənc olduğum üçün olanları yaxşı qavraya bilmirdim. Bundan əlavə, biz Araz çayını keçərək oradan çox pis vəziyyətdə ayrıldıq. 29 il ərzində müxtəlif yerlərdə məskunlaşsaq da, fikrimiz, ağlımız Zəngilanda idi. Hər zaman Zəngilana, Ağalıya getmək istəyirdik. Şükürlər olsun ki, bu anları yaşamaq bizə qismət oldu".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ağalı kəndinə köçən sakin Solmaz Vəliyeva söyləyib.

Solmaz Vəliyeva deyib: "Doğma yurdumuza qayıtmağın sevincini sözlərlə ifadə etmək olmur. Çünki Zəngilan bizim üçün doğma və əziz bir məkandır. Arzuladığımız, xəyal etdiyimiz Ağalı bu gün bizləri gözləyir. Eyni zamanda Zəngilanı görməyən, ora haqqında əyani məlumata sahib olan gənclər bu gün artıq oradadır".

O qeyd edib ki, Zəngilan haqqında daim xoş fikirlər eşidib. Bakıda və Gəncədə yaşadığını xatırladan Solmaz Vəliyeva Ağalını heç zaman unutmadığını, insanın doğulduğu yerin ona əziz olduğunu vurğulayıb.





# Əzəli yurdlara əbədi qayıdış

### "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalıya əhalinin köçürülməsinin birinci mərhələsi uğurla başa çatdı





**Azərbaycan xalqı olaraq, tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayırıq. Zəfər sevinci daddıq, illərlə həsrət qaldığımız Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüzminlərlə soydaşımız məcburi köçkünlük yükündən azad oldu.**

Hazırda isə tarix salnamələrimizə qızıl hərflərlə həkk olunacaq daha bir möhtəşəm məqamı, dədə-baba yurdlarımıza Böyük qayıdışı yaşayırıq. Şanlı Vətən müharibəmizin üzərindən heç iki il ötməmiş, Qarabağın, Şərqi Zəngəzurun əzəli sakinləri yurdlarında əbədi yaşamağa dönürlər.

Zəfərdən sonra bu xoşbəxtliyi ilk yaşayanlar, doğma Vətənə dönüşün ilk "qaranquşlar"ı isə Zəngilanın Ağalı kəndinin sakinləri oldular. Artıq "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi başa çatıb.





### "Böyük qayıdışın birinci kiçik addımı, bax bu gün atılır"

Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda möcüzələr yaradır. 30 il ərzində erməni barbarlarının dağıdıb viranəyə çevirdiyi, bir həyat nişanəsi belə tapmaq mümkün olmayan ərazilərimizdə yeni həyat qurulur. Gündən-günə dirçələn yurdlarımızda müasir infrastruktur qurulur, nəhəng tunellər çəkilir, dünya miqyaslı dəhlizlər salınır, beynəlxalq hava limanları tikilir, bir sözlə, bu diyar meqalayihələrin gerçəkləşdirildiyi unikal məkana çevrilir.

İşğaldan azad edilən tarixi torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər birbaşa Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. O cümlədən də 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış məcburi köçkünlərin qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün mühüm layihələr gerçəkləşdirilir.

Bu baxımdan mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasiminin keçirilməsi mühüm əhəmiyyət daşıyırdı. Həmin gün dövlət başçısı İlham Əliyev Ağalı kənd sakinləri ilə görüşü zamanı bütün Azərbaycan xalqına müjdə verərək söyləmişdi ki, "Bu gün Böyük qayıdış dediyimiz prosesə start verildi. Böyük qayıdışın birinci kiçik addımı, bax bu gün atılır".

Şanlı zəfərimizin ardınca xalqımıza verilən bu xoş xəbərdən sonra, yurd həsrətli soydaşlarımız od-ocaqlarına dönəcəyi zamana sayılı günlər qalmasının təsvirəgəlməz sevincini yaşadılar.

Artıq köçkünlük həyatları başa çatmışdı, Vətəndə qəribçilikdən qurtulmuşdular, düz bir qərinəlik mənəvi məhrumiyyətlərdən sonra ömürlərinin yeni mərhələsinə qədəm qoymuşdular. Qarşıda onları bəxtəvər çağlar, firavan həyat gözləyirdi...

Və çox keçmədən Zəngilanın Ağalı kəndinin sakinləri illərlə arzuladıqları bu xoşbəxtliyi yaşadılar, doğma kəndlərinə qovuşdular.

### Ağalıya köçürülən ailələr hər cür şəraitlə təmin olunublar

İyulun 19-dan etibarən Zəngilanın Ağalı kəndinə əhalinin dörd mərhələdə köçürülməsinə start verildi. Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən dördüncü köç karvanı isə ayın 25-də Ağalıya yola salındı. Daha 10 ailə - 58 nəfər yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşdılar. Beləliklə, Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi uğurla başa çatdırıldı.

Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var.

Zəngilan Rayon İcra Hakimiyyətinin Ağalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyindən isə bildirilib ki, avqustun əvvəlindən Ağalı kəndinə insanların köçürülməsinin ikinci mərhələsi başlayacaq.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə 4 mərhələdə köçürülən 41 ailə, 201 nəfər hər cür şəraitlə təmin olunub.

Ümumiyyətlə, Ağalıda məskunlaşacaq sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunacaqlar. Burada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll ediləcək.

### Mütərəqqi texnologiyalara əsaslanmış unikal məkan

"Biz azad edilmiş torpaqları müasir mütərəqqi texnologiyalara əsaslanmış böyük bir məkan kimi görmək istəyirik və indi olduğumuz Ağalı kəndinin timsalında bunu görürük..."

Prezident İlham Əliyevin Ağalı sakinləri ilə görüşü zamanı səsləndirdiyi bu fikirlərdə olduğu kimi, Ağalı kəndi Azərbaycanda ilk "ağıllı kənd" konsepsiyası ilə qurulmuş möhtəşəm məkandır.

Ağalı kəndində reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri - yəni 5 komponent üzrə aparılıb. İnşa edilən 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

"Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri təsis olunub. Eləcə də "ağıllı kənd"də "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi tikilib.

Ağalıda aqrar sektorun inkişafına xüsusi önəm verilib. Kəndin kənarında yerləşən böyük əkin sahəsində pilot sistemlər quraşdırılıb.

### Dünya durduqca bu torpaqlarda var olacağıq

Vətən müharibəmizdən sonra doğma yurdlarımıza gerçəkləşdirilən möhtəşəm qayıdışın ilk ünvanı olan Ağalı kəndi, həm də bu torpaqlarda əbədi sülhün bərqərar olduğunun əyani nümayiş ünvanıdır. Təsadüfi deyil ki, Ağalı kəndinin mərkəzi meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi də Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən işə salınıb. Bu gün Qarabağa və Şərqi Zəngəzura yeni həyat verən dövlət başçısı Ağalının timsalında bir daha dünyaya bəyan edir ki, bu yurdların əzəli sahibləri qayıdıblar və dünya durduqca bu torpaqlarda var olacaqlar, yaşayacaqlar, yaradacaqlar...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## *Gülüş SƏMƏDLİ:* "Ağalı sakinlərinə hüquqşünas kimi xidmət edəcəyəm"

"Zəngilanda doğulmasam da, ora ilə bağlı qiyabi təsəvvürlərim çoxdur. Həmçinin Zəngilan haqqında yaxınlarım bizi məlumatlandırıb. Bu səbəbdəndir ki, o ərazilər bizim uşaqlıq arzumuz olub. Mən Ağalı kəndində yaşayan vətəndaşlara hüquqşünas kimi xidmət edəcəyəm".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ağalıya köçən gənc sakin Gülüş Səmədli söyləyib.

Zəngilana daha əvvəl də getdiyini xatırladan Gülüş Səmədli deyib: "Bu dəfə Ağalıya yaşamaq üçün gedirəm. Bu proses hamımız üçün xeyirli olsun. Qəribə və eyni zamanda sevincli hisslər yaşayıram".

Atasının Zəngilandan çıxdığı yaşda oraya qayıtdığını qeyd edən Ağalının gənc sakini bildirib: "Zəngilandan çıxan ən son insanlardan biri də atam olub. Əlbəttə ki, əzablı günlər olduğu kimi, sevincli anlar da baş verir. Belə ki, bu gün bizim xoşbəxt günümüzdür. Çünki biz Ağalıya məskunlaşmağa gedirik".

O vurğulayıb ki, Qarabağda aparılan bərpa-quruculuq işləri MDB və region ölkələrinə səs saldı. Dünya gördü ki, Azərbaycan Ermənistan tərəfindən dağıdılmış ərazilərdə həyatı geri qaytarır. Bu günləri bizə yaşadan Allaha şükürlər olsun. Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edən müzəffər Azərbaycan Ordusuna təşəkkür edirik. Şəhidlərimizə rəhmət, qazilərimizə isə cansağlığı arzulayıram.

## *Ceyran ABBASOVA:* "Doğma yurdumuza qayıtmağın sevincini yaşayırıq"

"Yaşadığımız 29 illik məcburi köçkünlük həyatı başa çatdı. Zəngilandan çıxanda 8 yaşım var idi. Amma bu gün doğma yurdumuza qayıtmağın sevincini yaşayırıq".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ağalıya köçən kənd sakini Ceyran Abbasova söyləyib.

O deyib: "Təhsil almağımda mənə dəstək olan ailəmə təşəkkür edirəm. Çünki bu gün mən Ağalı kəndində yerləşən Ailə Sağlamlıq Mərkəzinə şöbə müdiri kimi gedirəm. Orada yaşayan sakinlərin qulluğunda olmaq da əlavə məsuliyyət tələb edir. Buna görə də özümü xoşbəxt hiss edirəm".

## *Şamil HACIYEV:* "Zəngilana qayıtdığımız üçün özümüzü xoşbəxt hiss edirik"

"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 29 illik həsrətdən sonra Zəngilanı azad etdi. Zəngilanın azadlığı uğrunda canından keçən şəhidlərə Allahdan rəhmət diləyirik, qazilərə cansağlığı arzu edirik. Bu gün doğma yurdumuza qayıtdığımız üçün dövlət başçısına təşəkkür edirik".



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Ağalıya köçən kənd sakini Şamil Hacıyev söyləyib.

O qeyd edib ki, sevinclərinin hədd-hüdudu yoxdur, eyni zamanda bu gün çox qürurludurlar. Çünki uzun illərdir gözlədikləri an yetişib.

"Biz 29 ildir Zəngilandan uzaqda olsaq da, ürəyimiz daim doğma yurdumuz ilə döyünüb. İnanırdıq ki, yaxın zamanda o gün gələcək. Bu, belə də oldu. Zəngilana qayıtdığımız üçün özümüzü xoşbəxt hiss edirik", - deyə Ş.Hacıyev bildirib.

## *Ağalı sakini:* "Biz neçə illərdir ki, bu günləri gözləyirdik"

"Bu gün çox sevincliyik. Çünki doğma yurdumuza qayıdırıq. Biz neçə illərdir ki, bu günləri gözləyirdik".



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Ağalıya köçən kənd sakini Yeganə Əhmədova deyib.

Kənd sakini qeyd edib ki, bu günlər hər bir zəngilanlının həyatında önəmli hadisələrlə yadda qalıb.

"Hisslərimizi ifadə etmək bizim üçün olduqca çətindir. 29 il işğal altında qalan Zəngilan bu gün azaddır. Ordumuz sağ olsun ki, bu günləri bizə yaşatdı. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin", - deyə Yeganə Əhmədova əlavə edib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu CƏDVƏLİ

| S/n | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **01** |
| 2. | **Ucar** | Ucar, Kürdəmir, Göyçay, Zərdab | **baş prokuror** Kamran Əliyev | **03** |
| 3. | **Hacıqabul** | Hacıqabul, Şirvan | **gənclər və idman naziri** Fərid Qayıbov | **03** |
| 4. | **Abşeron** | Abşeron, Zəngilan | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **03** |
| 5. | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **04** |
| 6. | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Arzu Rəhimov | **04** |
| 7. | **Qəbələ** | Qəbələ, Oğuz | **iqtisadiyyat naziri** Mikayıl Cabbarov | **05** |
| 8. | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | **rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **05** |
| 9. | **Hacıqabul** | Hacıqabul, Şirvan | **Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** Zaur Mikayılov | **05** |
| 10. | **Oğuz** | Oğuz, Şəki, Qəbələ | **baş prokuror** Kamran Əliyev | **09** |
| 11. | **Qazax** | Qazax, Ağstafa, Tovuz | **Dövlət Gömrük Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən** Şahin Bağırov | **09** |
| 12. | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **12** |
| 13. | **Qusar** | Qusar, Quba | **"Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən** Köçərli Həsənov | **17** |
| 14. | **Şamaxı** | Şamaxı, Qobustan, Ağsu, İsmayıllı | **baş prokuror** Kamran Əliyev | **18** |
| 15. | **Biləsuvar** | Biləsuvar, Cəlilabad, Cəbrayıl | **ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **19** |
| 16. | **Qəbələ** | Qəbələ, Oğuz | **fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **19** |
| 17. | **Balakən** | Balakən, Zaqatala | **kənd təsərrüfatı naziri** İnam Kərimov | **19** |
| 18. | **Zaqatala** | Zaqatala, Balakən | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **19** |
| 19. | **Qax** | Qax, Şəki | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **19** |
| 20. | **Göyçay** | Göyçay, Ucar, Zərdab | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **19** |
| 21. | **Şəki** | Şəki, Qax | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **19** |
| 22. | **Şamaxı** | Şamaxı, Qobustan, Ağsu, İsmayıllı | **təhsil naziri** Emin Əmrullayev | **24** |
| 23. | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **25** |
| 24. | **Şəki** | Şəki, Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala | **daxili işlər naziri** Vilayət Eyvazov | **26** |
| 25. | **Şirvan** | Şirvan, Hacıqabul | **baş prokuror** Kamran Əliyev | **26** |
| 26. | **Xızı** | Xızı, Siyəzən | **əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **26** |
| 27. | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan | **ədliyyə naziri** Fikrət Məmmədov | **30** |
| 28. | **Göyçay** | Göyçay, Ağdaş | **energetika naziri** Pərviz Şahbazov | **31** |
| 29. | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz | **mədəniyyət naziri** Anar Kərimov | **31** |
| 30. | **Quba** | Quba, Qusar | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **31** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# COVID təhlükəsi səngimək bilmir

İki il əvvəl dünya gözləmədiyi bir anda COVID-19 adlı pandemiya ilə üz-üzə qaldı. Koronavirus infeksiyası inanılmaz sürətlə yayıldı, bu virusa yoluxan və xəstəlikdən dünyasını dəyişən insanların sayı hər ötən gün daha da artdı, dünyanın ən inkişaf etmiş ölkələrinin belə səhiyyə sistemləri çökdü.

Çünki pandemiyanın ilk vaxtlarında tibb aləmi, eləcə də ölkələr bu bəla ilə necə mübarizə aparılacağını bilmirdi. Lakin tədricən mütəxəssislərin səyi ilə bəşəri sınaqdan çıxmağın yolları, ən əsası virusa qarşı peyvənd tapıldı.

Hər bir ölkə vətəndaşlarını böhrandan minimum itki ilə çıxartmaq üçün öz strategiyasını, koronavirusa qarşı mübarizədə fərqli yanaşma tərzi və metodlarını tətbiq etdi.

Azərbaycan dövləti də pandemiyanın ilk günlərindən qəbul etdiyi qərarlar və karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamağa nail oldu. COVID-19-la mübarizədə Azərbaycan uğurlu və məqsədyönlü siyasəti ilə bir çox ölkələrə nümunə göstərərək Cənubi Qafqazda peyvəndin tətbiq edildiyi ilk ölkə oldu.

Koronavirusla mübarizədə ən effektiv üsul hesab edilən peyvəndləmə Azərbaycanda bu gün də davam etdirilir. Ölkədə son günlərdə peyvənd olunanların sayı 2 mini ötüb. Bu günədək ölkəmizdə təxminən 14 milyon vaksin vurulub.

### "Kentavr" ştamı payızda yoluxma sürətini artıra bilər

Mütəxəssislərin fikrincə, "Omikron"un altnövü olan "Kentavr" ştamı payızda xəstəliyin alovlanmasına səbəb ola bilər. Növbəti koronavirus dalğasının daha böyük olması ehtimal edilir. Belə ki, virus payızda mövsümi SARS (Ağır Kəskin Tənəffüs Sindromu) ilə üst-üstə düşəcək.

"Kentavr" ştamı ilk dəfə 2022-ci ilin yayında Hindistanda ortaya çıxıb və orada sürətlə yayılıb. Əgər o, iyunun 12-də infeksiyaların 2 faizini təşkil edirdisə, bir ay sonra bu rəqəm artıq 23 faizə çatdı. İyulun əvvəlindən dünyada yayılmağa başlayan "Kentavr" bu gün 10-dan çox ölkədə qeydə alınıb. Xüsusiyyətləri hələ tam müəyyən edilməsə də, virusoloqlar onun "Omikron"dan daha yoluxucu olacağını düşünürlər. Çünki yeni altnöv digər ştamların hibrididir.

### ÜST Qlobal Vaksinasiya Strategiyasının son versiyasını paylaşıb

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) "Omikron" ştamının yüksək dərəcədə yoluxucu altnövlərinin yayılması fonunda COVID-19-a qarşı Qlobal Vaksinasiya Strategiyasının son yenilənmiş versiyasını paylaşıb. Yenilənmiş strategiya təkmilləşdirilmiş vaksinlərin hazırlanmasını sürətləndirmək məqsədi daşıyır. Mövcud vaksinlər xəstəliyin ağır irəliləyişini yumşaltsa da, virusun aradan qalxmasını kökündən həll etməyib.

COVID-19-a qarşı vaksinlərin tətbiqinin ilk ilində 19,8 milyon insanın həyatını xilas etmək mümkün olub. Dünya üzrə 12 milyarddan çox doza istifadə edilib. Bu da ölkələrə orta hesabla əhalisinin 60 faizini vaksinasiya ilə əhatə etməyə imkan verib.

### Ehtiyat tədbirlərini əldən verməməliyik

Bir çox digər viruslar kimi, COVID-19 da yoluxuculuğu artırmaq və patogenliyi azaltmaq üçün daim mutasiyaya uğrayır, modifikasiyalar eyni istiqamətdə gedir. Tibbi proqnozlara görə, daha bir neçə oxşar koronavirus dalğasından sonra cəmiyyətdə artıq kollektiv immunitet yaranacaq və bu təhlükəni itirəcək.

O zamana qədər isə hər birimiz məsuliyyətimizin fərqində olmalı, ehtiyatı əldən verməməliyik. İnsanların sıx toplaşdığı yerlərdə və qapalı məkanlarda tibbi maskadan istifadə olunmalı, gigiyenik qaydalara riayət edilməli, sosial məsafə qorunmalıdır. Bu bəşəri bəlanın öhdəsindən yalnız bunlara əməl etməklə gələ bilərik.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ölümlə çarpışanlar

## Son 6 ay ərzində dəniz sularında 1200 nəfər miqrant həyatını itirib

Ötən gün Aralıq dənizində qeyri-hökumət qurumlarının gəmiləri ilə 500-dən çox miqrant xilas edilib. Almaniyanın "Sea-Watch" xeyriyyə təşkilatı dörd xilasetmə missiyası həyata keçirib. Şimali Afrikadan Avropaya təhlükəli qayıqlarla getməyə çalışan 428 nəfər gəmilərə qaldırılıb.





Fransanın "SOS Mediterranee" xidməti 57-si azyaşlı olan 87 nəfər miqrantı aşkar edib. Təşkilat bildirib ki, hazırda Qırmızı Xaç Cəmiyyəti onların qayğısına qalır.

"Associated Press" Agentliyinin İtaliya Sahil Mühafizəsinə istinadən verdiyi xəbərə görə, İtaliya gəmiləri Aralıq dənizində Liviya sahilləri yaxınlığında axınla üzən balıqçı qayığından beş cəsəd çıxarıb və 674 nəfəri xilas edib.

İtaliyanın cənub-qərb sahillərindən 190 kilometr aralıda həyata keçirilən əməliyyat zamanı xilas edilənlərin hamısı Kalabriya və Siciliya limanlarına çatdırılıb. Xilasedicilər tərəfindən meyitləri aşkarlanan 5 nəfərin ölüm səbəbi hələlik məlum deyil.

İtaliya Sahil Mühafizəsi bunun son günlər Aralıq dənizinin mərkəzində ölkənin axtarış-xilasetmə zonasında həyata keçirilən silsilə xilasetmə əməliyyatlarından yalnız biri olduğunu bildirib.

BMT-nin Miqrasiya Agentliyinin məlumatına görə, altı ay ərzində İtaliyaya dəniz yolu ilə təxminən 33 min qeyri-qanuni miqrant gəlib. Onların əksəriyyəti Əfqanıstan, Banqladeş, Misir və Tunisdəndir.

Eyni zamanda dənizdə 1200-dən çox miqrant həlak olub.

Dünən Amerika sahilləri yaxınlığında da miqrantların kütləvi ölümü ilə nəticələnmiş olay baş verib. Belə ki, Baham Adaları Birliyinin ərazi sularında qayığın qəzaya uğraması nəticəsində azı 17 nəfər ölüb. Qurbanlar arasında uşaqda var. Təhlükəli vəziyyətdə olan 25 nəfər xilas edilib.

Baham hökumətinin məlumatına görə, Haiti vətəndaşlarını daşıyan sürətli qayıq Mayamiyə doğru hərəkət edirmiş. Faciəyə fırtına səbəb olub.

Ölüm riskinə baxmayaraq, miqrantlar müntəzəm olaraq Mərkəzi Amerika və Karib hövzəsinin ən yoxsul ölkəsini tərk edərək ABŞ sahillərinə çatmağa çalışırlar.

Pandemiya ilə əlaqədar hərəkət məhdudiyyətlərinə baxmayaraq, müharibə, münaqişə və repressiya səbəbindən evlərini tərk edən insanların sayı 2021-ci ildə ən yüksək səviyyəyə çatıb.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Agentliyinin (UNHCR) məlumatına görə, 2021-ci ilin yanvar-noyabr ayları arasında 84 milyondan çox insan öz evlərini tərk edib. Bu rəqəm bir vaxtlar rekord qıran 2020-ci və 2019-cu illərin səviyyələrindən də yüksəkdir.

Hazırda təxminən 281 milyon beynəlxalq miqrant var. Bu, dünya əhalisinin 3,6 faizini təşkil edir. Söhbət doğulduğu ölkələrdən kənarda yaşayan və işləyən insanlardan gedir. Onlar özləri və övladları üçün daha yaxşı həyat axtarışında miqrasiya edir, qəbul edildikləri dövlətlərin və ya ölkələrin inkişafına böyük töhfə verirlər. Belə ki, həmin miqrantlar istehsal sektorunda və səhiyyə sferasında işçi qüvvəsi çatışmazlığı probleminin həllinə kömək edirlər və öz ölkələrinə pul göndərirlər.

Ümumilikdə dünyada təxminən hər 8 adamdan biri - 1 milyarddan çox insan qaçqın vəziyyətindədir. Bunlardan 281 milyonu beynəlxalq miqrant, 84 milyonu isə məcburi köçkündür.

Yoxsulluq, təhlükəsizliyin və əsas xidmətlərə çıxışın olmaması, silahlı münaqişələr, ətraf mühitin pozulması, habelə təbii fəlakətlər səbəbindən köçkünlərin sayının artacağı gözlənilir.

Statistik məlumatlara görə, son illərdə beynəlxalq miqrasiyanın miqyası durmadan artır: 2020-ci ildə dünyada 1990-cı illə müqayisədə 128 milyondan çox miqrant olub.

2021-ci ilin əvvəlindən 7 minə yaxın miqrant başqa ölkələrə getmək istəyərkən həlak olub.

Ötən il ən çox qaçqın Suriya,Venesuela, Əfqanıstan, Cənubi Sudan və Myanmadan olub. Onların əksəriyyətini Türkiyə, Kolumbiya, Uqanda, Pakistan və Almaniya qəbul edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov Sumqayıtda vətəndaşların qəbulunu keçirib.

Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qəbulda Sumqayıt şəhəri və Abşeron rayonunun sakinləri iştirak ediblər.

Vətəndaşların qəbulu zamanı 30-dan çox sakin imtiyazlı şəxslərin mənzil, avtomobil təminatı, səyyar sosial xidmətin təşkili, sanatoriya-kurort yollayışları ilə təminat, şəhid ailəsi üzvünün vəsiqəsi ilə təmin edilməsi məsələləri ilə əlaqədar müraciətlərini bildirib.

Agentlik sədri müraciətlərin aidiyyəti üzrə araşdırılması və qanunvericiliyin tələblərinə uyğun olaraq həll edilməsi üçün tapşırıq verib.

# Ermənistan əhalisi çörəyə möhtac qalıb

## Səfalət içərisində yaşayan insanlar xarici ölkələrdə sığınacaq axtarırlar

Bütün sahələrdə dərin böhran yaşayan Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Tərəflər bir-birilərini təhdidə davam edirlər. Artıq İrəvanda "Azadlıq" meydanında növbəti mitinq başlayıb.

Aksiyaçılar ötən ay polis polkunun binasını ələ keçirmiş və hazırda həbsdə olan şəxslərə dəstək nümayiş etdirirlər. Bu çəkişmələrdən yorulan əhali isə problemlərinin həllini istəyir. Ölkədə əhalinin 60 faizi işsizdir. Bu ilin ilk 6 ayında işsizliyin səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə orta hesabla 24 faiz artıb.

"4rd.am" saytı yazır ki, hazırda Ermənistanda rəsmi qeydiyyata alınan işsizlərin sayı 74 min nəfərdən çoxdur. Milli Statistika Xidmətinin Ermənistanda yoxsulluğun mənzərəsi və iş bazarının problemləri üzrə beşillik araşdırmalarının nəticələrinə görə, ölkədə hər 100 işsizdən 40-ı gəncdir. Ümumi işsizlər arasında 20-29 yaşlı insanlar üstünlük təşkil edir. Ermənistanda yeni iş yerlərinin açılması da mümkün deyil. Çünki ölkə iqtisadiyyatı tamamilə iflasa uğrayır. Vəziyyət o həddə çatıb ki, hətta mövsümi iş tapmaq çox çətindir.

Bütün bunların fonunda sosial-iqtisadi sahədə gərginlik getdikcə daha da dərinləşir. Ermənistanda çörək istehsalı 60 faizə qədər azalıb. Ölkədə orta aylıq əməkhaqqı olduqca aşağı səviyyədədir. Paşinyan iqtidarının milli valyutanın - dramın məzənnəsini saxlamaq üçün göstərdiyi cəhdlər heç bir nəticə vermir. Çünki normal iqtisadiyyatı olmayan ölkədə inflyasiyanın həcmi gün keçdikcə daha da artır. Hətta milli valyutanın məzənnəsini saxlamaq məqsədilə Ermənistan Mərkəzi Bankının indiyədək ayırdığı vəsaitlərin belə problemin yoluna qoyulmasında heç bir təsiri olmayıb. Ölkənin xarici borcu artıq ümumi daxili məhsulun 60-70 faizini üstələyir.

Son zamanlar Ermənistanda çörək istehsalı da kəskin azalıb. Bu barədə İrəvan çörək zavodunun məsul işçilərindən biri "İravunk" qəzetinə müsahibəsində deyib. O bildirib ki, ölkənin bir neçə şəhərində çörək zavodları var. Son hesabata əsasən, bu müəssisələrdə istehsal 60 faizə qədər azalıb. İnsanlar köhnəlmiş çörəkləri daha çox almaq istəyirlər. Buna səbəb köhnəlmiş çörəyin iki dəfə ucuz satılmasıdır. Birdən-birə istehsalda 60 faizlik azalma ölkə iqtisadiyyatında dözülməz vəziyyətlə əlaqələndirilir.

Sosial-iqtisadi sahədə dərin böhran yaşayan Ermənistanda yoxsulluq həddi gündən-günə yüksəlir. Əhalinin işsizlikdən sonra üzləşdiyi ən böyük problem mənzil şəraiti ilə bağlıdır. Ekspertlər bunu inşaat sektorunda illərdir hökm sürən durğunluqla əlaqələndirirlər. Bildirilir ki, Ermənistanda əksər ailələr uşaqlarını ağır şəraitdə böyüdürlər. Ailə üzvləri işsizdir. Onlar ümidlərini yalnız cüzi pensiyaya bağlayırlar. Belə ağır şəraitdə yaşayan ailələrin uşaqları sağlam olmurlar. Uşaqların normal geyimləri olmadığı üçün məktəbə də gedə bilmirlər. Ailələrin aylıq gəliri 40 min dramı keçmir. Həmin məbləğ isə bir nəfərin yaşaması üçün belə kifayət deyil. Əhalinin 43 faizi isə ya evsizdir, ya da şəraitsiz mənzillərdə yaşayır. Hökumət isə bu problemlərin həllində acizdir. Ermənistanda tikinti sektorunda illərdir durğunluq hökm sürür. Ölkədə sement istehsalı da dayandırılıb.

Ermənistan "Xəbərlər-news.am" saytının əməkdaşı ölkədə artmaqda olan inflyasiyanın onların rifahına necə təsir etdiyini öyrənmək üçün vətəndaşlar arasında sorğu keçirib. Təbii ki, əhali arasında narazılıq baş alıb gedir. Məsələn, həyatlarından gileyli olan ermənilərin biri deyir: "Artıq ət məhsullarını almırıq, çünki pul çatmır". Başqa bir nəfər isə deyir ki, Ermənistanda inflyasiya adi bir hadisəyə çevrilməkdədir. Belə ki, əgər əvvəllər 10.000 drama nə isə almaq olurdusa, indi bunun üçün 20.000 dram ödəməyə məcbursan.

Son illərdə Ermənistan vətəndaşları arasında inkişaf etmiş xarici ölkələrdə sığınacaq axtaranların sayı nəzərəçarpacaq dərəcədə artıb. Son dövrlərdə 11 mindən çox erməni xarici ölkələrdən sığınacaq istəyib. Fransada məskunlaşmaq arzusunda olan ermənilərin sayı son on illə müqayisədə iki dəfə artıb. Ötən il Fransaya 4 mindən artıq erməni sığınacaq üçün müraciət edib. Fransadan sonra Almaniyadan, Avstraliyadan, Kanadadan və Polşadan sığınacaq almağa çalışan ermənilərin sayında artım müşahidə olunur.

Bunlar bir daha Ermənistanda bütün sahələrdə vəziyyətin qeyri-qənaətbəxş olduğunun, ölkə hakimiyyətinin hər keçən gün daha çıxılmaz vəziyyətə düşdüyünün sübutudur. Hadisələrin bu səpkidə inkişafı yaxın gələcəkdə Ermənistanda hakimiyyət böhranının dərinləşəcəyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# "Azərenerji" ASC-nin Qarabağdakı enerji obyektlərində 150 nəfər daimi işlə təmin edilib

"Azərenerji" ASC işğaldan azad edilən ərazilərdə enerji təminatı ilə yanaşı, cənab Prezident İlham Əliyevin Böyük qayıdış strategiyasına uyğun olaraq sistemli məskunlaşma fəaliyyətini də həyata keçirir.









"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, bu günə qədər Qarabağ və Şərqi Zəngəzurda tikilərək istismara verilən 4 su-elektrik stansiyası, 9 yarımstansiya və Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzində ümumilikdə 14 enerji obyektində işğaldan azad edilmiş rayonların 150-dən çox sakini daimi işlə təmin edilib.

Qeyd edək ki, enerji obyektlərində kadr seçilərkən kimin hansı rayondan olmasına da xüsusi önəm verilir. Belə ki, kəlbəcərli Kəlbəcərdə, ağdamlı Ağdamda və digər rayon sakinləri də həmçinin öz rayonunda işlə təmin edilir. Hətta Şuşada digər qurumların bəzi əməkdaşlarının da məskunlaşdığı binada "Azərenerji"nin əməkdaşlarından öz ailəsi ilə birlikdə yaşayanlar var.

"Azərenerji" tərəfindən tikilərək istismara verilən bəzi yarımstansiyaların mühafizə zonasında yaşıllıq, meyvə bağları salınmaqla yanaşı, əməkdaşlar üçün yataqxanalar da yaradılıb və hazırda istismara verilmiş bir neçə yarımstansiyanın yanında, o cümlədən tikintisi davam edən Cəbrayıl və Laçındakı yarımstansiyaların ərazisində də yataqxanalar tikilir. "Azərenerji" cənab Prezidentin Böyük qayıdış strategiyasına uyğun olaraq Qarabağ sakinlərinin işlə təmin edilməsi üçün sistemli fəaliyyətini bundan sonra da davam etdirəcək.

# Zəngilan Beynəlxalq Hava Limanına IATA kodu təyin edilib

"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətindən verilən məlumata görə, Zəngilanda yeni inşa edilən hava limanına ZZE - üçhərfli beynəlxalq kodu təyin edilib.



Müvafiq Qətnamə Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının sərnişin daşımalarına dair konfransında (IATA Passenger Services Conference) qəbul edilmişdir.

"Zəngilan Beynəlxalq Hava Limanı Şərqi Zəngəzurda mühüm infrastruktur layihələrindən biridir. Bu liman regionun sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayacaqdır. Zəngilan hava limanına üçhərfli IATA kodunun təyin edilməsi burada iri və müasir logistika mərkəzinin yaradılması istiqamətində daha bir addımdır", - deyə AZAL-ın prezidenti Cahangir Əsgərov bildirib.

Hava limanına təyin edilmiş unikal kod şəhərin (Zəngilan) və yerləşdiyi regionun (Şərqi Zəngəzur) adından istifadə edilərək yaradılmışdır.

IATA-nın üçhərfli hava limanı kodu sərnişin və yük aviadaşımalarının kommersiya təşkilinə xidmət edir. Həmin kod beynəlxalq təxsisetmə zamanı və aerovağzal komplekslərinin yerüstü xidmətlərinin fəaliyyətində, yəni beynəlxalq aviabilet satışı sistemlərində, uçuş cədvəlində, hava əlaqəsində və məsələlərdə istifadə olunur.

Xatırladaq ki, daha əvvəl ICAO Zəngilan Beynəlxalq Hava Limanına UBBZ - dördhərfli kodu təyin etmişdir.

Zəngilanda beynəlxalq hava limanının inşası 2021-ci ilin yazında başlamışdır. Hava limanının tikintisi işlərinin bu ilin sentyabr ayında başa çatdırılması planlaşdırılır. Burada bütün tip sərnişin və yük təyyarələri eniş edə bilər.

Zəngilan Beynəlxalq Hava Limanının uçuş-eniş zolağının uzunluğu 3 000 metr, uzunluğu isə 60 metrdir.

Hava limanı terminalının buraxılış qabiliyyəti saatda 200 sərnişin üçün nəzərdə tutulub.

# "Azpetrol" şirkəti yanacaqdoldurma məntəqələrinin sayını 93-ə çatdırdı

Azərbaycanda ən böyük yanacaqdoldurma şəbəkəsinə malik olan "Azpetrol" şirkəti strateji inkişaf planına uyğun olaraq paytaxt Bakıda yanacaqdoldurma məntəqələrinin sayını artırmaqda davam edir.




Müştəri məmnuniyyətinin təmin edilməsi və xidmət keyfiyyətinin müasir standartlara uyğunlaşdırılması "Azpetrol" şirkətinin prioritet fəaliyyət istiqamətlərindəndir.

"Azpetrol" şirkəti tələbatın artması və çoxsaylı təklifləri nəzərə alaraq Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi 15-ci km, 1C ünvanında yerləşən "Mayak" qazdoldurma məntəqəsində (QDM) yenidənqurma işləri aparıb. Nəticədə qazdoldurma məntəqəsi (QDM) yanacaqdoldurma məntəqəsinə (YDM) çevrilib və ərazidə maye-qaz doldurma postu (LPG) yaradılıb.

Bununla da "Azpetrol" şirkətinin yanacaqdoldurma məntəqələrinin sayı 93-ə çatıb.

Yenilənmiş "Mayak-3-YDM" ərazisində sürücülərə həmçinin kafe, "Azpetrol" və bank kartlarına xidmət, bankomat, maye-qaz doldurma postu (LPG) və sıxılmış təbii qaz postu (CNG) xidmətləri də təklif olunur.

Qeyd edək ki, mövcud yanacaqdoldurma məntəqələrində aparılan işlər "Azpetrol" şirkətinin 25 illik yubileyi münasibəti ilə həyata keçirilir. Şirkətin ilk yanacaqdoldurma məntəqəsi - "Spartak" 1997-ci il iyulun 15-də Bakı şəhəri, Nəsimi rayonu, Moskva prospekti, 1013-cü məhəllədə açılıb. "Azpetrol" şirkətinin hazırda ölkəmizin əksər iqtisadi zonalarında ümumilikdə 93 yanacaqdoldurma məntəqəsi, 2 maye qazdoldurma (propan-butan) məntəqəsi, ictimai nəqliyyatda sərnişindaşımaya xidmət edən, respublikada ən muasir standartlara cavab verən 1 sıxılmış təbii qaz (CNG) terminalı, yanacaq məhsullarının saxlanılması üçün 3 neft bazası, yanacaqdaşıyan maşınlar üçün avtobaza, yanacağın yanacaqdoldurma məntəqələrinə fasiləsiz daşınmasını təmin etmək üçün 100 yanacaq daşıyan avtomobili, minik maşınları üçün avtosahə mövcuddur. Fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrində 4 sıxılmış təbii qazdoldurma postu, 3 maye qazdoldurma postu və 17 elektromobillərin enerji ilə doldurulma postu, 8 motel, eyni zamanda müxtəlif xidmətlərin göstərilməsi üçün əksər məntəqələrdə iaşə obyektləri (kafe, market) və avtoyuma xidməti fəaliyyət göstərir.

***"Azərbaycan"***

# Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzində hüquqşünas vəzifələrinə işə qəbul ilə əlaqədar müsabiqə elan edilir

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılmış "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs tərəfindən mərkəzdə mövcud hüquqşünas vəzifələrinə işə qəbul ilə əlaqədar müsabiqə elan edilir.

AZƏRTAC mərkəzdə mövcud vəzifələri təqdim edir:

**Publik hüququn ekspertizası şöbəsi - 4 vakant vəzifə**

şöbə müdiri - 1
baş mütəxəssis - 2
aparıcı mütəxəssis - 1

**Xüsusi hüququn ekspertizası şöbəsi - 4 vakant vəzifə**

şöbə müdiri - 1
baş mütəxəssis - 1
aparıcı mütəxəssis - 2

**Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsi - 3 vakant vəzifə**

şöbə müdiri - 1
baş mütəxəssis - 1
aparıcı mütəxəssis - 1

Müsabiqədə iştirak etmək üçün namizədlərə dair minimal tələblər:

Hüquqşünaslıq (beynəlxalq hüquq) ixtisası üzrə bakalavr dərəcəsi;

Hüquq sahəsində azı 3 il iş təcrübəsi;

Ən azı bir xarici dil biliyi.

Əlavə üstünlüklər:

Normayaratma fəaliyyəti sahəsində iş təcrübəsi;

Magistr və ona bərabər ali hüquq təhsili.

Müraciət edən namizədlər arasından yalnız elan olunmuş vəzifələrə daha uyğun gələn şəxslər müsabiqəyə dəvət olunacaqlar. Müsabiqə iki mərhələdən - yazılı imtahan və müsahibədən ibarət olacaq. Yalnız yazılı imtahan mərhələsindən uğurla keçmiş şəxslərlə müsahibə keçiriləcək.

Maraqlanan namizədlər öz anketlərini (CV-lərini) **office@heqt.gov.az** e-mailinə göndərə bilərlər.

Son tarix: 10 avqust 2022-ci il.

*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Təhsil Nazirliyinin birbaşa tabeliyində olan təhsil müəssisələrində dövlət təminatında olan təhsilalanların 2022-ci ilin sentyabr-dekabr ayları ərzində yeməklə təchizatının satın alınması *məqsədi ilə tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs: İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olmasını təsdiq edən sənəd kimi qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin dövlət reyestrindən çıxarışı;*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə (təhsil müəssisələrinə) qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən 31 dekabr 2022-ci il tarixədək mallar (iş və xidmətlər) dövlət təminatında olan təhsilalanların müvafiq yaş qrupları üzrə hazırlanmış 14 sayda gündəlik menyulara uyğun sıra ardıcıllığı gözlənilməklə bu müddət ərzində tenderin Əsas şərtlər toplusunda göstərilmiş 55 təhsil müəssisəsində gündəlik təhvil verilməlidir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **17.08.2022-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **25.08.2022-ci il 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.08.2022-ci il saat 16:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5094
Sifariş 2041
Qiyməti 40 qəpik